13 sentyabr 2023 №67 (2036) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Elmi-texniki bilikləri gündəlik həyatda tətbiqlə şagirdlərə öyrətmək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib.

Prezident məktəbəqədər hazırlıq, ibtidai sinif otaqlarında, biologiya kabinetində, çağırışaqədər hərbi hazırlıq otağında, STEAM mərkəzində, fizika kabinetində, kimya laboratoriyasında, informatika otağında, idman zalında və yeməkxanada yaradılan şəraitlə tanış olub.

səh. 2

## Təsviri sənətimizin 95 yaşlı sənətkarı

Azərbaycan təsviri sənətində özünəməxsus yeri olan Xalq rəssamı Tofiq Ağababayevin sentyabrın 8-də 95 yaşı tamam olub. Bu münasibətlə mədəniyyət naziri Adil Kərimli yubilyar sənətkarı evində ziyarət edib.

Tofiq Ağababayevi yubileyi münasibətilə təbrik edən nazir sənətkara möhkəm cansağlığı və bundan sonra da yaradıcılıqla dolu fərəhli ömür arzulayıb.

səh. 5

## Firəngiz Əlizadənin əsəri Almaniyada tədris proqramında

Azərbaycan bəstəkarının əsəri ilk dəfə Almaniyanın ali musiqi məktəblərinin tədris proqramına daxil edilib.

Almaniya dünya musiqisində böyük yeri olan bəstəkarların vətənidir. Bax, Bethoven, Brams kimi dünya səviyyəli bəstəkarların yaradıcılığı yüksək professionallığın parlaq nümunəsidir. Bu adlarla yanaşı, Almaniyanın ali musiqi ocaqlarının tədris proqramına görkəmli Azərbaycan bəstəkarı Firəngiz Əlizadənin "Muğamsayağı" əsərinin daxil edilməsi əlamətdar hadisədir.

Azərbaycan bəstəkarının əsərinin Almaniyada belə diqqət qazanması təsadüfi deyil. Hələ 1989-cu ildə "Musik und Gesellschaft" (Almaniya) jurnalında qeyd olunurdu ki, Firəngiz Əlizadənin musiqisi Çingiz Aytmatovun kitabları kimi Şərq mədəniyyətini və incəsənətini Qərb üçün açır.

davamı səh. 3-də

## Reza Deqatinin fotolarında "Sükutun dərinliyi"



Məşhur sülh carçısı, fotojurnalist Reza Deqatinin silsilə sərgiləri Fransanın regionlarında davam edir. Bretany regionunun Vannes şəhərində fotojurnalistin "Sükutun dərinliyi" adlı sərgisi açılıb.

R.Deqati əsl sənətkar kimi sözünü, fikirlərini fotoları vasitəsilə ötürür. Reallığı əks etdirən fotolar qarşısında sözə ehtiyac olmur. Onun sərgilərində bir qayda olaraq Azərbaycan, eləcə də onun işğalçılar tərəfindən yerlə yeksan edilmiş şəhər və kəndlərini əks etdirən fotolar da nümayiş olunur. Erməni işğalı dövründə vəhşicəsinə dağıdılmış şəhər və kəndlərimizi əks etdirən Deqati fotoları ilə ictimaiyyətə həqiqətləri çatdırır.

Sənətkarın budəfəki silsilə sərgilərinin komissarları Raşel Deqati və Fransada sərgilər kuratoru Pyer Bonciovanidir. R.Deqatinin fotolarına yerli ictimaiyyət və xarici turistlər böyük maraq göstərir.

## Məktəblilərə Azərbaycan xalçaları haqqında məlumat verilib



səh. 4

# Üzeyir dühasının nuru ölkənin dörd yanına yayılacaq

### Ənənəvi festival bu il Bakı, Gəncə, Şəmkir və Şuşada gerçəkləşəcək

Xəbər verdiyimiz kimi, 18-28 sentyabr tarixlərində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Festivalda ABŞ, Fransa, Gürcüstan, Xorvatiya, Rusiya, Sinqapur və digər ölkələrdən də musiqiçi və kollektivlər iştirak edəcək.




2009-cu ildə əsası qoyulan ənənəvi festivalın bu il də zəngin proqramı var. Bu il ilk dəfə olaraq festivalın konsert və təqdimatları dörd şəhərimizdə – Bakı, Gəncə, Şəmkir və Şuşada gerçəkləşəcək. Açıq havada və müxtəlif məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans, ustad dərsləri və digər tədbirlər nəzərdə tutulur.

Sentyabrın 18-də – Milli Musiqi Günündə (Üzeyir Musiqi Günü) dahi bəstəkarın ata yurdu Şuşada açıq havada Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında "Leyli və Məcnun" operası nümayiş olunacaq. Bakıdakı Fəvvarələr meydanında isə Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestrinin ifasında konsert keçiriləcək.

Həmin gün axşam Bakıda Heydər Əliyev Sarayında festivalın təntənəli açılış mərasimi olacaq. Bu il anadan olmasının 90 illiyi qeyd olunan böyük bəstəkar, SSRİ Xalq artisti Arif Məlikovun dünyanın bir sıra teatrlarının repertuarını bəzəyən "Məhəbbət əfsanəsi" baleti uzun fasilədən sonra yenidən öz vətənində nümayiş etdiriləcək.

Qeyd edək ki, ənənəvi olaraq festivalın açılış günü Fəxri xiyabanda Üzeyir bəy və digər görkəmli incəsənət xadimlərinin məzarları ziyarət olunacaq. Həmçinin Azərbaycan Milli Konservatoriyası və Bakı Musiqi Akademiyasında tədbirlər reallaşacaq. Üzeyir Hacıbəylinin Ev-Muzeyində də ədəbi-musiqili proqram təqdim ediləcək.

Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı bu il yeniyetmə və gənclər üçün xüsusi layihələrlə də yadda qalacaq. Azərbaycan Dövlət Uşaq Filarmoniyası və Bakı şəhərində fəaliyyət göstərən uşaq musiqi məktəblərinin şagirdlərindən ibarət 200 nəfərlik birləşmiş xalq çalğı alətləri orkestri Heydər Əliyev Mərkəzinin parkında çıxış edəcək, gənc istedadların iştirakı ilə bədii proqramlar təşkil olunacaq.

davamı səh. 2-də

## Ər-Riyadda UNESCO Dünya İrs Komitəsinin 45-ci sessiyası keçirilir

10-25 sentyabr tarixlərində Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində UNESCO-nun Dünya İrs Komitəsinin 45-ci sessiyası keçirilir. Sessiyaya Azərbaycan nümayəndə heyəti də qatılıb.



Sessiyada ötən dövr ərzində Dünya İrs Komitəsinin fəaliyyətinə nəzər salınacaq, UNESCO-nun Dünya İrsi Siyahısına daxil olan ərazilərin konservasiya vəziyyətinin qiymətləndirilməsi müzakirə olunacaq, təklif olunan yeni nominasiyalar qiymətləndiriləcək. Həmçinin sessiya çərçivəsində seminarlar, sərgilər, digər tədbirlər keçiriləcək. Sessiyanın diqqətçəkən məqamlarından biri də ilk dəfə İsrail nümayəndə heyətinin Səudiyyə Ərəbistanında keçirilən beynəlxalq tədbirdə iştirakıdır.

Xatırladaq ki, 2019-cu ildə Dünya İrs Komitəsinin 43-cü sessiyasına Bakı şəhəri ev sahibliyi edib. Həmin il 30 iyun – 10 iyul tarixlərində keçirilən sessiya bizim üçün həm də Şəki Xan sarayının və şəhərin tarixi mərkəzinin Dünya İrsi Siyahısına salınması ilə yadda qalıb. Bununla Azərbaycanın sözügedən siyahıdakı irs obyektlərinin sayı 3-ə (İçərişəhər və Qobustandan sonra) çatıb.

Dünya İrsi Siyahısı UNESCO-nun "Dünya mədəni və təbii irsinin qorunması haqqında" 1972-ci il Konvensiyası əsasında yaradılıb. Konvensiya Dünya İrsi Siyahısına qəbul olunmaq üçün təbii və ya mədəni yerlərin növünü müəyyənləşdirir və müstəsna universal dəyərə malik abidə və məkanlar ümumbəşəri irs elan edilməyə layiq görülür. Hazırda siyahıda 1157 obyekt var. Onlardan 900-ü mədəni irs, 218-i təbiət abidəsidir. Daha 39 obyekt qarışıq nominasiya kimi siyahıya daxil edilib.

Ər-Riyad şəhərində keçirilən sessiyada daha 50 mədəni və təbii irs nümunəsi ilə bağlı nominasiya fayllarına baxılacaq.

## 6-cı "Animafilm" festivalı başa çatıb

### Qran-prini çinli rejissor qazanıb...



Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi, Azərbaycan Animasiya Assosiasiyası və "Peri Film" MMC-nin təşkilatçılığı ilə sentyabrın 6-dan 10-dək Bakıda 6-cı "Animafilm" Beynəlxalq Animasiya Festivalı keçirilib.

Azərbaycan Kinematoqrafçılar İttifaqı, Azərbaycan Yaradıcı Sənayelər Federasiyası, Çexiya və Fransanın ölkəmizdəki səfirlikləri, Azərbaycandakı Fransız İnstitutu, "Annecy" Beynəlxalq Animasiya Film Festivalı və digər qurumların tərəfdaşlığı ilə gerçəkləşən builki festivalın mövzusu "Qadın haqları" idi.

Sentyabrın 10-da Nizami Kino Mərkəzində festivalın bağlanışı və qaliblərin mükafatlandırılması mərasimi olub.

Festivalda filmləri beynəlxalq münsiflər heyəti – İzabel Favez (İsveçrə), İsmayıl İman (Azərbaycan), Ana Çubinidze (Gürcüstan), Oqtay Yusibov (Azərbaycan, Finlandiya), Olivye Kateğin (Fransa) və Təhzib Kurana (Hindistan) kimi peşəkarlar dəyərləndirib.

davamı səh. 8-də

## Uşaq İncəsənət Festivalının final mərhələsinin 1700-dən çox iştirakçısı olub

Müstəqillik tariximizin iştirakçı sayına və əhatə dairəsinə görə ən böyük incəsənət layihəsi sayılan Uşaq İncəsənət Festivalının final mərhələsi başa çatıb.

21 nominasiyası olan festivalın final mərhələsi 1-9 sentyabr tarixlərində Bakıda altı mədəniyyət müəssisəsində – M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası, Akademik Milli Dram Teatrı, Beynəlxalq Muğam Mərkəzi, Milli Xalça Muzeyi, Akademik Musiqili Teatr və Dövlət Uşaq Filarmoniyasında gerçəkləşib.

Final mərhələsinə 57 kollektiv, fərdi şəkildə isə 1687 nəfər qatılıb.

Festivalın final mərhələsinin gedişini izləmək üçün sentyabrın 7-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında olduq. Həmin gün estrada oxuma nominasiyası üzrə çıxışlar dinlənilirdi.

davamı səh. 2-də

## Vətən müharibəsində Zəfərə ithaf edilən ədəbi müsabiqənin nəticəsi elan olunub

səh. 3

## Arif Məlikov – əbədiyyətə qovuşan əfsanə

Sentyabrın 13-də musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, bəstəkar, pedaqoq, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatı laureatı Arif Məlikovun anadan olmasının 90 illiyi tamam olur.



"...Texnikumda oxuyarkən mənim ilk müəllimlərim Əhməd Bakıxanov və Adil Gəray olublar. Bəstəkar olmağıma görə də ilk olaraq onlara borcluyam...".

"...Qarayevin sinfində keçirdiyim saatlar indi də yadımdadır. Dərsin son dəqiqəsinə kimi gərginlik içində olurdum, bu gözəl müəllimin dediklərindən heç bir şeyi ötürməməyə çalışırdım. Sözlərinin mənə və ya başqasına ünvanlanması əhəmiyyətli deyildi. Müstəsna, hərtərəfli bilgili müəllim idi, tələbələrin əsərlərinə diqqətlə yanaşırdı. Qara Qarayevin mənə çox böyük təsiri olmuşdur...".

Arif Məlikovun həyatında mühüm rol oynayan digər böyük sənətkar maestro Niyazi idi. Görkəmli dirijor həmişə istər ifaçılıq, istərsə də bəstəkarlıq sahəsində istedadları axtarar, onların gələcək yaradıcı həyatını stimullaşdırardı...

səh. 6

№67 (2036)
13 sentyabr 2023
www.medeniyyet.az

# T.M.Ağababayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan rəssamlıq sənətinin inkişafında xidmətlərinə görə Tofiq Məmmədəli oğlu Ağababayev "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 12 sentyabr 2023-cü il**

# Üzeyir dühasının nuru ölkənin dörd yanına yayılacaq

*əvvəli səh. 1-də*

Festival günlərində Bakı şəhərindəki iri ticarət mərkəzlərində xüsusi ayrılmış yerlərdə tanınmış müğənnilərin ifasında Üzeyir Hacıbəylinin vokal əsərləri karaoke formatında səslənəcək və arzu edən hər kəs bu formata qoşula biləcək.

Musiqi bayramı günlərində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası, Azərbaycan Milli İncəsənət Muzeyi, Beynəlxalq Muğam Mərkəzi, filarmoniyanın Kamera və Orqan Musiqisi Zalı, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Opera studiyası və digər məkanlarda müxtəlif proqramlar təqdim olunacaq.

# "Şəhərsalma həftəsi" keçiriləcək

Azərbaycan Respublikası dayanıqlı urbanizasiya proseslərinin əhəmiyyətini vurğulamaq məqsədilə BMT-nin Məskunlaşma Proqramı ilə birgə sentyabrın 29-dan ölkəmizdə "Şəhərsalma həftəsi" təşkil ediləcək. Bu barədə Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirilib.

Məlumata əsasən, 29 sentyabr – 1 oktyabr tarixlərində Zəngilan və Bakı şəhərlərində keçiriləcək "Dayanıqlı şəhərlər iqtisadi inkişafın və bərabərsizliklə mübarizənin aparıcı qüvvəsi rolunda" mövzusunda II Azərbaycan Milli Şəhərsalma Forumu bir çox xarici ölkələrdən rəsmiləri, mütəxəssisləri və ekspertləri bir araya gətirəcək.

Oktyabrın 2-də paytaxtımız ilk dəfə olaraq Dünya Məskunlaşma Gününə ev sahibliyi edəcək. Həmin gün nüfuzlu beynəlxalq ekspertlər və dövlət rəsmiləri "Dayanıqlı şəhər iqtisadiyyatı. Şəhərlər inkişafın və bərpanın aparıcı qüvvəsi kimi" mövzusu ilə hamı üçün əlçatan və keyfiyyətli şəhər həyatının təşviqi və dayanıqlı şəhərlərin inkişafı üzrə çağırışların müzakirəsini aparacaqlar.

"Şəhərsalma həftəsi" çərçivəsində digər tədbirlər də nəzərdə tutulur.

# Arif Məlikovun əsərlərindən ibarət konsert

Sentyabrın 12-də Milli Aviasiya Akademiyasında Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatı laureatı Arif Məlikovun anadan olmasının 90 illiyinə həsr edilən tədbir keçirilib.



Tədbirdə görkəmli bəstəkarın bənzərsiz yaradıcılıq nümunələrindən danışılıb və musiqi əsərləri səsləndirilib.

Bildirilib ki, Arif Məlikovun çoxşaxəli yaradıcılığının mühüm bir istiqamətini filmlərə və teatr tamaşalarına yazdığı musiqilər təşkil edir. Onun "Sehrli xalat", "Ulduzlar sönmür", "Axırıncı aşırım " kimi filmlərə, "Natəvan", "Atabəylər" tamaşalarına yazdığı musiqi əsərləri bu gün də sevilə-sevilə dinlənilir.

Bəstəkarın yaradıcılığında estrada əsərləri də mühüm yer tutub. Bəstəkarın yazdığı "Yaşatdı məni", "Dənizdə ay çiməndə", "Gəl bizim dağlara" və digər mahnılar tanınmış müğənnilərimizin ifasında böyük şöhrət qazanıb. Onun bəstələdiyi mahnılar Rəşid Behbudov, Şövkət Ələkbərova, Flora Kərimova və digər tanınmış müğənnilərimizin repertuarını bəzəyib.

Milli Aviasiya Akademiyasının tələbələri və professor-müəllim heyətinin izlədiyi konsert proqramında Xalq artisti Fidan Hacıyeva, Əməkdar artistlər Ramil Qasımov, İnarə Babayeva, müğənni Kamilə Nəbiyeva bəstəkarın müxtəlif illərdə yazdığı mahnıları və operetta parçalarını ifa ediblər. İfaçıları Xalq artisti Ənvər Sadıqovun "Qaytağı" instrumental ansamblı müşayiət edib.

# Elmi-texniki bilikləri gündəlik həyatda tətbiqlə şagirdlərə öyrətmək

## Prezident Xırdalanda STEAM layihəsi əsasında tədris verəcək yeni məktəb binası ilə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev dövlət başçısına 2 min şagird yerlik məktəbdə yaradılan şərait barədə məlumat veriblər.

Qeyd edək ki, bu məktəbin layihəsi Xırdalan şəhərinin ərazisindəki təhsil ocaqlarında şagird sıxlığı nəzərə alınaraq dövlət başçısının tapşırıqlarına əsasən hazırlanıb. Məktəb binasının tikintisi 2021-ci ilin fevral ayında başlanıb və bu ilin sentyabr ayında başa çatdırılıb. Ən müasir avadanlıqla təchiz olunan funksional bina tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şəraitə malikdir. Yeni məktəbdə 74 sinif, 6 informatika otağı, 8 otaqdan ibarət STEAM mərkəzi, eləcə də digər fənn kabinetləri, xarici dil, musiqi, rəsm otaqları, kitabxana, yeməkxana, 400 nəfərlik akt zalı var.

Prezident məktəbəqədər hazırlıq, ibtidai sinif otaqlarında, biologiya kabinetində, çağırışaqədər hərbi hazırlıq otağında, STEAM mərkəzində, fizika kabinetində, kimya laboratoriyasında, informatika otağında, idman zalında və yeməkxanada yaradılan şəraitlə tanış olub.

STEAM layihəsi birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-2020-ci tədris ilinin əvvəlindən məktəblərdə tətbiq edilir. STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə aşılamaqla yanaşı, onlara mühəndislik səriştələri öyrədir.

Bu məktəbin STEAM mərkəzi də elektron lövhələr, kompüterlər, 3D printerlər, müvafiq öyrədici qurğular, elektron komponentlər və dəftərxana ləvazimatları ilə təmin olunub. Burada həmçinin mühəndis emalatxanası, kiçikyaşlı uşaqlar üçün zona, təlim və robototexnika otaqları var.

Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Son illərdə ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.



***

Yeri gəlmişkən, 2023-2024-cü tədris ilində ümumilikdə 318 adda 7,8 milyon nüsxəyə yaxın dərslik çap edilərək məktəblərə paylanılıb. Elm və Təhsil Nazirliyindən verilən məlumata görə, cari tədris ilində həmçinin 24 adda dərslik təkmilləşdirilib, 37 adda dərslik isə yenilənib.

## İşğaldan azad edilən ərazilərdəki təhsil ocaqları

2023-2024-cü tədris ilində Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində tikinti və təmir işləri aparılan təhsil müəssisələrinin adları açıqlanıb.

Elm və Təhsil Nazirliyindən bildirilib ki, Şuşa şəhəri 1 nömrəli 960 yerlik tam orta məktəbində son tamamlanma işləri görülür. Şuşa real məktəbində bərpa işlərinə hazırlıq gedir.

Laçın rayonu Zabux kəndində 176 yerlik məktəbdə bərpa-gücləndirmə və əsaslı təmirlə bağlı tamamlanma işləri aparılır.

Ağdam şəhəri 960 yerlik 1 nömrəli tam orta məktəbdə tikinti işləri davam edir.

Cəbrayıl şəhəri 960 yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbdə sponsor dəstəyi ilə tikinti işləri aparılır.

Həmçinin Zəngilan şəhəri 960 yerlik tam orta məktəbi, Kəlbəcər şəhəri 960 yerlik tam orta məktəbi, Ağdam şəhəri 160 yerlik körpələr evi-uşaq bağçası və Füzuli Peşə liseyində tikinti işlərinə hazırlıq görülür.

Qubadlı şəhəri 600 yerlik tam orta məktəbində layihə-smeta sənədlərinin hazırlanmasına başlanılacaq.

Ağdam şəhəri 2 nömrəli 160 yerlik körpələr evi-uşaq bağçası, Ağdam şəhəri 2 nömrəli 960 yerlik tam orta məktəbi və Zəngilan şəhəri 160 yerlik körpələr evi-uşaq bağçasında tikintinin layihələndirilməsinə hazırlıq gedir.

# Uşaq İncəsənət Festivalının final mərhələsinin 1700-dən çox iştirakçısı olub

*əvvəli səh. 1-də*

Final mərhələsinin 38 iştirakçısı həyəcanla öz çıxış növbəsini gözləyir. Onların məharətini Xalq artisti, müğənni Natəvan Şeyxova, Əməkdar incəsənət xadimi, bəstəkar Vaqif Gərayzadə və bəstəkar Pikə Axundovadan ibarət münsiflər heyəti qiymətləndirəcək.

Çıxışlar başlayır, uşaqlar münsiflər qarşısında öz bacarıqlarını nümayiş etdirirlər. Təqdim olunan estrada mahnıları həm Azərbaycan, həm də xarici ölkə musiqilərini əhatə edir. İfaçılarda final sevinci ilə yanaşı, həyəcan da hiss olunur.

Çıxışlara bir neçə dəqiqəlik fasilə verilir.

Fürsət tapıb münsiflər heyətinin üzvlərindən Pikə Axundovadan festival barədə fikirlərini öyrənirik: "Həqiqətən, Uşaq İncəsənət Festivalı genişmiqyaslı bir layihədir. Finalda ötən turlardan seçilən ən yaxşı uşaqlar iştirak edir. Ona görə də uşaqlar arasında seçim etmək çətinləşib. Vətənimin belə istedadlı uşaqları ilə qürur duyuram. Fürsətdən istifadə edib bütün iştirakçılara uğurlar arzulayıram. İnanıram ki, bu gün səhnədə kövrək addımlarını atan uşaqlar gələcəkdə Azərbaycan musiqisinin layiqli təmsilçiləri olacaqlar. Bütün təşkilatçılara təşəkkürümü bildirirəm".





Filarmoniyanın böyük səhnəsinin arxasındayıq. Çıxışlarını yekunlaşdıran iştirakçıların da bəziləri öz təəssüratlarını bizimlə bölüşür.

Ruqlay Əlisoy Bakı şəhəri S.Yolçuyev adına 207 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdidir. O, həmçinin Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Musiqi məktəbinin 3-cü sinfində təhsil alır. Çıxışı zamanı bir qədər həyəcan yaşadığını deyir.

Nuray Mirzəzadə festivala Ağcabədi rayonunun Hüsülü kəndindən qatılıb. Kəndlərindəki musiqi məktəbində təhsil alır: "Festivalın finalında iştirak etmək üçün nənəmlə birlikdə Bakı şəhərinə gəlmişəm. Nənəm musiqi məktəbində fortepiano ixtisası üzrə dərs deyir. Mən də nənəmin sayəsində musiqiyə həvəs göstərmişəm".

Əzizə Davudova isə hələ həyəcanla səhnəyə çıxacağı anı gözləyir. Şəki rayonunun Kiş kəndindən gəlib. Şəki şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin 4-cü sinfində təhsil alır. Əzizə üzərində əməyi olan bütün müəllimlərinə təşəkkürünü bildirir: "Gələcəkdə ölkənin tanınmış sənətçilərindən olmağı arzulayıram".

Qeyd edək ki, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi festivalın baş sponsoru "BP Azerbaijan" şirkətidir.

Üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə keçirilən festivala respublikanın bütün rayon və şəhərlərindən 27 minədək müraciət olmuşdu. Peşəkar və həvəskar kateqoriyaları üzrə təşkil olunan festivalın birinci mərhələsi aprel-iyun, II mərhələsi isə iyul-avqust aylarını əhatə etmişdi.

Festivalın qalibləri haqqında qarşıdakı saylarımızda məlumat verəcəyik.

**Nurəddin**

# Ağdam-Xankəndi yolu açıldı...

## Yoldan ilk olaraq Rusiyanın göndərdiyi humanitar yük daşınıb



Xəbər verildiyi kimi, sentyabrın 12-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əlaqələndirilmiş şəkildə Rusiya Qırmızı Xaç Cəmiyyətinin (RQXC) yük avtomobilinin Ağdam-Xankəndi yolu vasitəsilə Xankəndinə keçidi təmin olunub. Ərzaq və qeyri-ərzaq məhsulları yüklənmiş TIR sentyabrın 10-dan Xankəndinə keçmək üçün gözləyirdi.

Sentyabrın 12-də səhər Rusiya Hökumətinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Rusiya Qırmızı Xaç Cəmiyyətinin birgə əməkdaşlıq memorandumuna əsasən, Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin ərzağa olan ehtiyaclarının qarşılanması məqsədilə RQXC tərəfindən göndərilən humanitar yük Ağdamdan Xankəndinə yola düşüb. Həmin gün Xankəndidə yükünü boşaldan avtomobil eyni yolla geri qayıdıb.

Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qondarma rejimi tərəfindən problem və təxribatların törədilməsinə baxmayaraq, RQXC tərəfindən göndərilən yükün Azərbaycanla əlaqələndirilmiş şəkildə məhz Ağdam-Xankəndi yolu ilə keçməsini bu yolun açılması istiqamətində müsbət addım və mühüm irəliləyiş kimi qiymətləndiririk.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə bunu RQXC tərəfindən göndərilən yükün Ağdam-Xankəndi yolu ilə keçidi, habelə Ağdam-Xankəndi və Laçın yollarının eyni zamanda açılması məsələsi ilə bağlı yerli medianın suallarına cavabında deyib:

"Ağdam-Xankəndi və Laçın yollarından eyni vaxtda istifadə məsələsinə gəldikdə isə, Azərbaycanın ABŞ və digər tərəfdaşlar ilə yüksək səviyyəli təmaslar zamanı da qeyd etdiyi kimi, ölkəmiz bu iki yoldan BQXK vasitəsilə eyni zamanda istifadə məsələsinə razılıq verib. Təəssüf ki, bu razılığın da həyata keçirilməsinə mane olan Ermənistan tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejimdir.

Bir daha bəyan edirik ki, Azərbaycan tərəfi Ağdam-Xankəndi yolu ilə paralel olaraq, Laçın sərhəd-buraxılış məntəqəsində müvafiq olaraq sərhəd və gömrük prosedurlarına əməl etməklə BQXK vasitəsilə yüklərin daşınmasına şərait yaratmağa hazırdır".

Rusiya hesab edir ki, yaxın vaxtlarda Ağdam marşrutu ilə paralel olaraq, Laçın yolu da fəaliyyətə başlayacaq.

Bunu isə RF XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Rusiya Qırmızı Xaç Cəmiyyətinin humanitar yardımının Qarabağın erməniəsilli əhalisinə çatdırılması ilə bağlı şərhində bildirib.

Şərhdə qeyd olunub ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun irəli sürdüyü təşəbbüsə əsasən, iyulun 25-də Moskvada Azərbaycan və Ermənistanın xarici siyasət idarələri rəhbərlərinin iştirakı ilə üçtərəfli görüş əsnasında bütün maraqlı tərəflər ilə qarşılıqlı fəaliyyət əsasında Laçın və Ağdam marşrutlarının paralel şəkildə fəaliyyət göstərməsi sxemi hazırlanıb. Mövqelərin xeyli dərəcədə fərqli olması, yüksək səviyyədə etimadsızlıq səbəbindən bu iş heç də asan olmayıb. Birinci addım kimi, bu il sentyabrın 12-də regiona ümumrusiya ictimai təşkilatı – Rusiya Qırmızı Xaçının xətti ilə humanitar yardım partiyası göndərilib.

Rusiya XİN-in sözçüsü ümidvar olduğunu bildirib ki, əvvəllər əldə edilmiş anlaşmaya uyğun olaraq, yaxın vaxtlarda yüklər mütəmadi şəkildə hər iki istiqamət üzrə maneəsiz daxil olacaq ki, bu da, öz növbəsində Bakı ilə Qarabağdakı erməni əhali arasında dialoqun başlanmasına və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması üzrə 2020-2022-ci illərdə yüksək səviyyədə əldə olunmuş üçtərəfli razılaşmaların bütün kompleksinin reallaşmasına dair ritmik prosesin bərpa olunmasına şərait yaradacaq.

# Pekində mədəni irsin qorunması və bərpası üzrə əməkdaşlıq müzakirə olunub

## Mədəniyyət Nazirliyi nümayəndə heyətinin Çinə səfəri başa çatıb...



Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndə heyəti sentyabrın 3-dən 9-dək Çin Xalq Respublikasında səfərdə olub.

Səfər çərçivəsində sentyabrın 8-də nümayəndə heyətinin Çin mədəniyyət nazirinin müavini, bu ölkənin Milli İncəsənət Fondunun baş katibi və Çin Mədəni İrsin Təşviqi Assosiasiyasının prezidenti Li Çün ilə görüşü keçirilib.

Azərbaycan nümayəndə heyətini səmimi salamlayan Li Çün dəvəti qəbul edib Çinə səfər etdiklərinə görə mədəniyyət naziri Adil Kərimliyə təşəkkürünü bildirib.

Çinin tarix-mədəniyyət abidələri haqqında məlumat verən nazir müavini ölkəsinin qədim mirasının qorunması istiqamətində həyata keçirilən işlərdən danışıb. Li Çün eyni zamanda beynəlxalq səviyyədə mədəni əməkdaşlıq barədə söz açıb.

Səmimi qəbula və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən nazir Adil Kərimli Çin kimi dünyanın qədim sivilizasiya beşiklərindən sayılan bir ölkədə olmasından məmnunluğunu diqqətə çatdırıb.

Nazir Azərbaycanın mədəni zənginlikləri barədə məlumat verib, ölkələrimizi həm də tarixən Böyük İpək Yolunun birləşdirdiyini deyib. Bildirilib ki, bu tarixi marşrut üzərində yerləşən ölkələrin mədəni irsinin qorunması və təbliği sahəsində birgə səylər daha yaxşı nəticələrə gətirib çıxara bilər.

Qeyd olunub ki, Azərbaycanda tarix-mədəniyyət abidələrinin qorunması, bərpası və təbliği daim dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fonunun rəhbəri Mehriban xanım Əliyeva tərəfindən mədəniyyətin müxtəlif sahələrinin inkişafı ilə bağlı ardıcıl addımlar atılır, yerli və beynəlxalq layihələr həyata keçirilir. Heydər Əliyev Fondu təkcə ölkəmizdə deyil, xaricdə də mədəni irsin qorunmasına dəstək olur.

Nazir Çin ilə mədəniyyətin müxtəlif sahələri üzrə əməkdaşlığın daha da dərinləşdirilməsinin əhəmiyyətini qeyd edib, bir sıra istiqamətlərdə təcrübə mübadiləsinin vacibliyini vurğulayıb. Bu kontekstdə iki ölkə arasında müqavilə-hüquq bazasının təkmilləşdirilməsinin də zəruri olduğu qeyd edilib.



Ermənistan tərəfindən Azərbaycanın tarixi ərazilərinin 30 il ərzində işğal altında saxlanıldığını diqqətə çatdıran Adil Kərimli bu müddət ərzində bütün infrastrukturun, o cümlədən tarixi, mədəni və dini irsin vandalizmə məruz qaldığını, mənimsənildiyini və talan edildiyini vurğulayıb. Bildirilib ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusu düşməni ağır məğlubiyyətə uğradaraq ərazilərimizin 30 illik işğalına son qoyub, tarixi ədaləti və ərazi bütövlüyümüzü bərpa edib. Müharibədən sonra Ermənistanın törətdiyi vandalizmin gerçək vəziyyəti ortaya çıxıb, işğal illərində yüzlərlə şəhər, qəsəbə və kəndlərimizin yer üzündən silindiyi məlum olub.

Qeyd olunub ki, müharibədən qısa müddət sonra işğaldan azad olunmuş ərazilərdə Azərbaycan dövləti tərəfindən geniş bərpa və quruculuq işlərinə başlanılıb. Tarixi torpaqlarımızda mədəni irsin də bərpası istiqamətində davamlı iş aparılır. Bir sıra tarixi və dini abidələrin bərpası artıq başa çatdırılıb.

Çin mədəniyyət nazirinin müavininə Qarabağın işğaldan əvvəl və sonrakı dövrünü əks etdirən kitab-albom təqdim olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb, əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Vətən müharibəsində Zəfərə ithaf edilən ədəbi müsabiqəyə yekun vurulub

44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərə həsr olunan irihəcmli əsərlərin yaradılması məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən elan olunmuş ədəbi müsabiqəyə yekun vurulub.

Qeyd edək ki, müsabiqəyə təqdim edilmiş əsərlərin qiymətləndirilməsi və qalibin seçilməsi məqsədilə aidiyyəti sahə üzrə mütəxəssislərdən ibarət aşağıdakı tərkibdə komissiya yaradılmışdı: Vidadi Qafarov – AMEA Memarlıq və İncəsənət İnstitutu Teatr, kino və televiziya şöbəsinin müdiri sənətşünaslıq üzrə fəlsəfə doktoru; Səlim Babullaoğlu – Azərbaycan Yazıçılar Birliyinin katibi, şair, tərcüməçi; Qismət Rüstəmov – şair, yazıçı, tərcüməçi; Cavanşir Yusifli – tənqidçi, ədəbiyyatşünas, tərcüməçi.

Müsabiqədə obyektivliyi və şəffaflığı təmin etmək üçün roman, dram və mənzum hekayə janrları üzrə qəbul olunmuş 23 əsər və onların müəllifləri xüsusi ştrix ilə şifrlənərək komissiya üzvlərinə təqdim edilib.

Komissiya üzvləri tərəfindən hər bir əsərin oxunub, mövzu, bədii və peşəkar yaradıcılıq baxımından dəyərləndirilməsi aparılıb və əsərlər cədvəl üzrə qiymətləndirilib. Mədəniyyət Nazirliyində keçirilən yekun iclasda komissiya üzvləri fikirlərini səsləndiriblər.

Komissiyanın yekun qərarına əsasən, roman və mənzum hekayə janrları üzrə təqdim olunan 15 adda əsərin bədii səviyyəsi müsabiqənin tələblərinə cavab vermədiyi üçün qalib əsər müəyyənləşməyib.

Dram janrı üzrə təqdim olunan 8 əsərin arasından Sevinc Elsevərin "Çiçək məktublar" pyesi qalib seçilib.

Qaydalara əsasən, qalibə 5 min manat pul mükafatı və Mədəniyyət Nazirliyinin xüsusi diplomu təqdim olunacaq.

## Qələbəni tərənnüm edən aşıq mahnıları diskdə toplanıb

Azərbaycan Aşıqlar Birliyi (AAB) QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirdiyi "Aşıqlar Vətən müharibəsində Qələbəni tərənnüm edir" adlı layihə başa çatıb.

AAB-nin sədr müavini Altay Məmmədli bildirib ki, layihə çərçivəsində Qələbəni tərənnüm edən aşıq ifalarından ibarət audiodisk hazırlanıb. Diskdə Əməkdar mədəniyyət işçiləri, tanınmış aşıqlar Ağamurad Şirvanlı və Samirə Əliyeva, habelə Qələndər Zeynalov, Nazim Quliyev, Nəbi Nağıyev, Altay Məmmədli, Kəmalə Qubadlı, Roman Azaflı və digərlərinin, "Çeşmə" və "Misri" aşıq qruplarının ifalarında şanlı Zəfərimizi tərənnüm edən, qüdrətli Ordumuzu yeni uğurlara səsləyən aşıq mahnıları təqdim olunur. Audiodiskdə müxtəlif aşıq havalarından ibarət 20 ifa yer alıb.

Layihənin rəhbəri AAB-nin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, koordinatoru birliyin katibi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur. Audiodiskin yaxın günlərdə geniş ictimaiyyətə təqdim olunması nəzərdə tutulur.

# Firəngiz Əlizadənin əsəri Almaniyada tədris proqramında

*əvvəli səh. 1-də*

Firəngiz Əlizadə bəstəkar kimi stereotipləri sevmir və onları yüksək peşəkarlıqla öz üslubu ilə əvəz edir. Müasir musiqinin əfsanəsi Arnold Şönberq klassik Qərb musiqi ənənəsinin Şərqlə birləşdirilməsinin mümkünlüyünə inanmırdı və "onlar yağ və su kimi qarışmırlar", – deyə bildirirdi. Lakin Firəngiz Əlizadə bunun əksini sübut etdi – o, Şərq və Qərb musiqi elementlərini özünəməxsus bəstəkarlıq üslubunda uğurla əlaqələndirərək birləşdirdi.

Bəstəkarın fərdi musiqi dili avanqardizmlə tonallıq arasındadır və burada iki dünyanın özünəməxsus sintezi üstünlük təşkil edir. Firəngiz Əlizadə Şərq modal təfəkkürünün Qərb konstruktivizmi ilə qovuşduğu əsərlər yaradır. Onun musiqisi Amerikadan Avstraliyayadək məşhur orkestrlər, görkəmli musiqiçilər – Berliner Filarmonik, Kronos-Kvartet, Yo-Yo Ma, Evelin Qlenni, Hilari Han və bir çox başqaları tərəfindən ifa olunur.



Planetimizdə çəkişmə və münaqişələrin olduğu bir vaxtda bir çox ölkələrdə Firəngiz Əlizadənin musiqisi böyük maraqla qarşılanır. Onun yaradıcılığının Almaniyanın ali musiqi məktəblərinin tədris proqramına daxil edilməsi təkcə bəstəkarın özü üçün deyil, bütövlükdə Azərbaycan mədəniyyəti üçün sevindirici haldır. Tələbələr Firəngiz Əlizadənin yaradıcılığını təhlil edib öyrənəcək, eyni zamanda onun vətəni – Azərbaycan haqqında məlumat əldə edəcəklər.

# "Bilik" kitab sərgi-yarmarkası keçirilib



15 sentyabr – Bilik Günü ərəfəsində paytaxtın Nizami rayonundakı Heydər Əliyev adına park-bulvarda II "Bilik" kitab sərgi-yarmarkası keçirildi.

Sərgi Azərbaycan Nəşriyyatları Assosiasiyası (ANA) və Nizami Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 8-9 sentyabr tarixlərində gerçəkləşdi.

Sərginin açılışında qəzetimizə müsahibə verən assosiasiyanın idarə heyətinin üzvü, "BookZone" kitab evinin rəhbəri Seymur Tağıyev qeyd etdi ki, sərgi-yarmarkada 20-dən çox nəşriyyat və kitab evi iştirak edir. Nəşr məhsullarına 20 faizdən 70 faizədək endirimlər tətbiq olunub: "Sərgidə məktəbli ləvazimatı, kitablar, qeyd dəftərləri, test topluları, çantalar, bədii əsərlərin satışı təşkil edilir. Həmçinin sərgi məkanında Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ayrıca stend də hazırlanıb".

ANA-nın gələcək layihələri haqqında məlumat verən S.Tağıyev bildirdi ki, oktyabr ayında Sumqayıtda III Kitab sərgisi təşkil ediləcək. Bundan başqa, dekabr ayında Gəncədə, gələn ilin mart, aprel və may aylarında isə müvafiq olaraq Bakı, Lənkəran və Naxçıvanda kitab sərgilərinin keçirilməsi nəzərdə tutulub.

Açılış mərasimində ANA idarə heyətinin sədri Şəmil Sadiq və Nizami rayonu icra başçısının müavini İldırım Mehdiyev çıxış edərək sərgi haqqında fikirlərini bildirdilər.

Qeyd edək ki, sərgi müəlliflərin imza mərasimləri, əyləncəli şou-proqram, şeir saatları, canlı musiqi, uşaqlar üçün ustad dərsləri ilə yadda qalıb. Sərgi çərçivəsində Təhsilin İnkişaf Fondu və ANA-nın birgə təşkilatçılığı ilə keçirilən "Kitabqurdu" yay oxu marafonunun iştirakçıları ilə yazarlar Rövşən Abdullaoğlu, Əziz Sultan, Reyhan Yusifqızı, Əziz Yaqubzadə və Aynur Cavidin görüşü gerçəkləşib.

**Nurəddin**

# BMT-nin Cenevrədəki binasında "Azərbaycan" otağı

Sentyabrın 12-də xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Cenevrə Bölməsinin tarixi binasında yeni dizayn və konsepsiya əsasında təmir olunmuş "Azərbaycan" otağının açılışını edib. Açılışda BMT-nin Cenevrə Bölməsinin baş direktoru Tatyana Valovaya, bir sıra ölkələrin Cenevrədəki daimi nümayəndələri iştirak edib.



XİN-dən verilən xəbərə görə, mərasimdə Ceyhun Bayramov və Tatyana Valovaya çıxış ediblər. "Azərbaycan" otağının BMT-nin Cenevrə Bölməsinin fəaliyyətinə töhfə olduğu vurğulanıb.

2007-ci ildə Heydər Əliyev Fondu tərəfindən yaradılan otağın təmiri 2022-ci ildə başlanıb. Otaqda monitorlar, kameralar, audio-video avadanlıqlar quraşdırılıb. Burada sinxronlaşdırılmış görüşlərin, təqdimat və iclasların keçirilməsi üçün şərait var.

Otağın tərtibatında milli elementlərə də xüsusi yer ayrılıb. Otaq Azərbaycanın tarixini, zəngin təbiətini, memarlığını əks etdirən fotolar, habelə şəbəkə elementləri ilə dizayn edilib. Bundan əlavə, Qarabağ xalçası, şəbəkə eksponatı, muğam musiqi alətləri nümayiş etdirilir.

Layihə Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.

Xatırladaq ki, BMT-nin Cenevrə Ofisində az sayda ölkə öz otağını yaratmağa nail olub. Ölkə otaqları BMT-nin müxtəlif tədbirləri zamanı fərqli sessiyaların, iclasların və müxtəlif formatlı görüşlərin keçirilməsi üçün istifadə olunur. Belə mötəbər bir binada "Azərbaycan" otağının fəaliyyəti ölkənin təqdimatı baxımından önəm kəsb edir.

# Milli Məclisin sədri Sofiyada Azərbaycan dilini öyrənən tələbələrlə görüşüb



Bolqarıstanda rəsmi səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova sentyabrın 11-də Kliment Oxridski adına Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzi ilə tanış olub. Mərkəz Bakı Slavyan Universitetinin Sofiya Universiteti ilə əməkdaşlığı çərçivəsində yaradılıb.

Milli Məclisin sədrinə mərkəzin fəaliyyəti haqqında məlumat verilib.

Sahibə Qafarova mərkəzə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Milli Məclis tərəfindən nəşr olunmuş kitabları hədiyyə edib. Spiker həmçinin mərkəzə "Qarabağ işğaldan əvvəl və sonra" kitab-albomunu təqdim edib, Ermənistanın 30 illik işğalı zamanı şəhər və rayonlarımızda törətdiyi dağıntılar, vəhşiliklər barədə məlumat verib.

Daha sonra Milli Məclisin sədri Azərbaycan dilini öyrənən bolqar tələbələrlə görüşüb, mərkəzdə xatirə kitabını imzalayıb.

# Afaq Abbasova İtaliyada növbəti konsertdə çıxış edib

Əməkdar artist, Prezident mükafatçısı Afaq Abbasova İtaliyanın Toskana regionunun Torre del Laqo şəhərində dünya şöhrətli bəstəkar Cakomo Puççininin vəfatının 100 illiyinə həsr olunan "Puççininin qəhrəmanları" adlı konsertdə çıxış edib.



İtaliyalı opera ifaçıları ilə eyni səhnəni bölüşən Afaq Abbasova konsert proqramında məşhur soprano Martina Serafinlə birgə çıxış edib. Tanınmış italiyalı aktyor və rejissor, "Oskar" mükafatı laureatı Ciankarlo Ciannini tədbirdə çıxış edərək Puççininin operalarındakı ariyalarla bağlı fikirlərini bölüşüb.

Konsertə dair təəssüratlarını dilə gətirən Əməkdar artist çıxışından və məşhur ifaçılarla eyni səhnədə olmaqdan məmnunluğunu bildirib, eləcə də ona dəstək olan hər kəsə təşəkkür edib.

# "Yuğ" teatrı Qazaxıstanda festivala qatılacaq

Azərbaycan Dövlət Yuğ Teatrı Qazaxıstanda keçiriləcək "Biken" Beynəlxalq Teatr Festivalında iştirak edəcək.



Teatrdan bildirilib ki, festival Qazaxıstanın Xalq artisti Biken Rimovoyun 100 illik yubileyi ilə əlaqədar 29 sentyabr – 4 oktyabr tarixlərində sənətkarın adını daşıyan Taldıkorqan Dram Teatrında keçiriləcək.

Festival çərçivəsində "Yuğ" teatrı oktyabrın 3-də C.Məmmədquluzadənin "Çay dəsgahı" əsəri əsasında rejissor Günay Səttarın quruluşunda hazırlanmış "Toy dəsgahı" tamaşasını təqdim edəcək. Rolları aktyorlar Vüqar Hacıyev, Təranə Ocaqverdiyeva, Oqtay Mehdiyev, Amid Qasımov, Elgün Həmidov, Günəş Mehdizadə və Nigar Mürsəlova canlandırırlar.

# “İrsimizi tanıyaq və qoruyaq”

## Layihənin növbəti təqdimatı “Çıraqqala-Şabran” qoruğuna həsr olunub

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən “İrsimizi tanıyaq və qoruyaq” layihəsinin növbəti təqdimatı “Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğunun əhatə etdiyi abidələrə həsr olunub. Qoruq haqqında məlumatlar Azərbaycan və ingilis dillərində təqdim edilir.



Məlumatda bildirilir ki, Şabran (keçmiş Dəvəçi) rayonu ərazisindəki Çıraqqala, Beşbarmaq və yaxud Xızırzində qala-qayası, Gilgilçay səddi, onun üzərindəki Şəhərgah yaşayış məskəni qədim tariximizi özündə yaşadan abidələrdəndir. Dünya əhəmiyyətli Çıraqqala abidəsi Gilgilçay səddi ilə birlikdə IV-V əsrlərdə hündür qaya üzərində inşa edilib.

Çıraqqala mərkəzi qala da daxil olmaqla 17 bürcdən ibarətdir. Düzbucaqlı formasında olan qala əsasən yerli daşlardan və bişmiş kərpicdən tikilib. Divarların hündürlüyü təxminən 8-10 metr, qalınlığı 3-4 metrdir. Qala qapısından bir qədər aralıda su anbarı yerləşir. Saxsı borular onu deməyə əsas verir ki, su bu ovdana yaxınlıqdakı dağ çeşmələrindən gətirilib. Qarşıdan görünən təxminən 150 metr hündürlüyündə sıldırım qayanın zirvəsindəki daş bürc isə müşahidə və siqnal məqsədilə tikilib. Burada dayanan keşikçilər Beşbarmaq dağından şimala doğru təxminən 100 km dəniz sahili ərazisini nəzarətdə saxlaya biliblər.

Sovetlər dövründə baxımsızlıq üzündən qala bir neçə yerdən dağıntıya məruz qalıb. Prezident Heydər Əliyevin 23 iyun 2003-cü il tarixli sərəncamına əsasən, “Çıraqqala”, 27 sentyabr 2003-cü il tarixli sərəncamla isə “Şabran” qoruqları yaradılıb. Bundan sonra abidələrdə geniş araşdırma işləri aparılıb.

Qədim Şabran şəhərinin təqribən 2500 yaşı var. Arxeoloji qazıntılar zamanı ərazidə şüşə emalatxanaları, V əsrə aid çörəkbişirmə, qızıl, mis və digər metallardan pul kəsilən sexlər, şəhərin 8 bürcünün, XV əsrdə çəkilmiş su xəttinin qalıqları aşkar edilib. Şabran qədim Azərbaycan dövləti Qafqaz Albaniyası zamanı massagetlərin siyasi paytaxtı, bir müddət Şirvanşahlar dövlətinin mərkəzi olub. Böyük Azərbaycan şairi Əfzələddin Xaqani (1120-1190) Şirvanşah Axsitanın qəzəbinə tuş gələndə Şabran qalasında həbsə salınıb və məşhur “Həbsiyyə” əsərini də burada qələmə alıb.

Prezident İlham Əliyevin 22 oktyabr 2019-cu il tarixli sərəncamı ilə “Çıraqqala” və “Şabran” qoruqları birləşdirilərək “Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

“Çıraqqala-Şabran” qoruğu 7 tarixi abidəni özündə birləşdirir. Onlardan 3-ü dünya əhəmiyyətlidir. Dünya əhəmiyyətli abidələrdən ikisi memarlıq (Çıraqqala və Gilgilçay səddi), biri isə arxeoloji (qədim Şabran şəhəri yeri) abidədir.

Çıraqqala abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işlərinin görülməsi məqsədilə dövlət başçısının 2019-cu il 15 yanvar tarixli sərəncamı ilə vəsait ayrılıb. Həmin ilin may ayından abidədə möhkəmləndirmə və bərpa-konservasiya işlərinə başlanılıb və bu istiqamətdə işlər davam etdirilir.

# Qardaş şəhərlərin sırası genişlənir

Azərbaycanın Şirvan şəhəri Türkiyənin Manisa şəhəri qardaşlaşıb. Bu münasibətlə Manisa şəhərində dostluq və qardaşlıq haqqında protokol imzalanıb.



Mərasimdə Manisa Böyükşəhər Bələdiyyəsinin sədri Cengiz Ergün, Şirvan Şəhər Bələdiyyəsinin sədri Kürdoğlu Muradov, Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva və iki şəhərin digər rəsmiləri iştirak ediblər.

Sənədə əsasən, tərəflər arasında birgə proqram, layihələr, qarşılıqlı səfərlərin təşkili, habelə təcrübə və məlumat mübadiləsi, incəsənət, mədəniyyət və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulub.

Qeyd edək ki, 2022-ci ildə mədəniyyət paytaxtımız Şuşa ilə Türkiyənin Kayseri və Şəki ilə Berqama şəhərləri qardaşlaşmışdı.

# Astarada tanınmış rəssamla görüş keçirilib

Astara Dövlət Rəsm Qalereyasının dərnək üzvləri doğum günündə Azərbaycan Rəssamlar İttifaqının üzvü Firudin Quliyevin emalatxanasında olublar.



Gənclər 76 yaşını qeyd edən sənətkarı təbrik edib, yeni yaradıcılıq uğurları arzulayıblar. Firudin Quliyev gənc rəssamlara sənətin sirləri haqqında danışıb, tövsiyələrini verib. Milli rəssamlıq sənətinin inkişafı və təbliği ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, 1947-ci il sentyabrın 7-də Astarada doğulan Firudin Quliyev ölkəmizi bir çox beynəlxalq müsabiqələrdə təmsil edərək müxtəlif mükafatlara layiq görülüb. O, uzun illərdir “Qurani-Kərim”in surələrinə rəsmlər çəkir. Bu silsilədən 60-dan çox əsər yaradıb.

# 30 il əvvəl itkin düşənlər...

## Şəhidlərin qalıqları torpağa tapşırılıb

Otuz il əvvəl, Birinci Qarabağ müharibəsi zamanı Füzuli-Xocavənd istiqamətində gedən döyüşlərdə itkin düşən şəhid Hüseynov Əli Heydər oğlunun Edilli kəndində kütləvi məzarlıqda aşkarlanan nəşinin qalıqları Füzuli rayonunun Aşağı Yağlıvənd kəndində torpağa tapşırılıb.





Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, döyüş yoldaşları, müvafiq qurumların nümayəndələri, rayon sakinləri, qazilər, şəhid ailələri iştirak ediblər.

Şəhidlərimizin ruhuna dualar oxunub və “Şəhidlər ölməz, Vətən bölünməz!” şüarı səsləndirilib.

Şəhid Əli Hüseynovun nəşinin qalıqları himninin sədaları altında torpağa tapşırılıb. Şəhidin tabutunun büküldüyü Azərbaycan bayrağı qardaşına təqdim olunub.

Hüseynov Əli Heydər oğlu 1968-ci il avqust ayında Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı döyüşlərdə iştirak edib. 1993-cü ilin avqustunda itkin düşüb.

Əli Hüseynovun nəşinin qalıqları 2022-ci ildə Xocavənd rayonunun Edilli kəndi ərazisindəki kütləvi məzarlıqda aşkar edilib. Kənd İkinci Qarabağ müharibəsində, 15 oktyabr 2020-ci ildə işğaldan azad olunub. Həmin məzarlıqda erməni vəhşiliyinə məruz qalan, məftil və kəndirlərdən istifadə edilməklə əl-ayağı bağlanaraq kütləvi şəkildə basdırılmış 12 insan qalığı tapılıb. Kəllə sümüklərində küt alət izləri, həmçinin güllə və iti alətin deşdiyi izlər müşahidə olunub. Bu faktlar onu göstərir ki, ermənı qəsbkarları əsir götürdüyü azərbaycanlıları xüsusi zorakılıqla qətlə yetirib və kütləvi basdıraraq cinayət izlərini ört-basdır etməyə çalışıblar.

***

1993-cü ildə itkin düşən daha bir şəhidimiz Əsəd Məmməd oğlu Məmmədovun da qalıqları Edilli kəndi ərazisindəki kütləvi məzarlıqda aşkarlanıb.

Birinci Qarabağ müharibəsində Füzuli rayonunun Kürdmahmudlu kəndində itkin düşən Əsəd Məmmədovun qalıqları Ağstafa rayonunun Eynallı kənd qəbiristanlığında dəfn olunub. Vida mərasimində şəhidin ruhuna dualar oxunub, xalqımıza və dövlətimizə sülh və əmin-amanlıq arzulanıb.

Əsəd Məmmədovun tabutuna örtülmüş bayrağımız şəhidin oğluna təqdim olunub.

Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Müdafiə Nazirliyinin, rayon ictimaiyyətinin nümayəndələri, kənd sakinləri, qazilər iştirak ediblər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

# Milli-mənəvi dəyərlərimizin qayğıkeşi





Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində “Heydər Əliyev İli” münasibətilə müxtəlif səpkili tədbirlər keçirilir.

Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Açıq kitabxana” layihəsinə başlanılıb. Layihənin məqsədi mütaliəyə marağın artırılması, kitabxana-oxucu əlaqələrinin genişlənməsi, oxucularda mütaliə mədəniyyətinin təşviqidir.

***

Şəki-Zaqatala RMİ-nin təşkilatçılığı ilə Qax rayon Heydər Əliyev Mərkəzində “Heydər Əliyev və Azərbaycan” mövzusunda regional elmi konfrans keçirilib. “Kitabxanaların inkişafına Heydər Əliyev qayğısı”, “Azərbaycan mədəniyyətində Heydər Əliyev imzası”, “Azərbaycanın neft sektorunda “Əsrin müqaviləsi”nin rolu”, “Heydər Əliyev və Azərbaycan dili” və s. mövzularda çıxışlar dinlənilib. Sonda Şəki-Zaqatala RMİ-nin rəisi vəzifəsini müvəqqəti icra edən Nargilə Qafarova Ulu öndərin zəngin irsinin öyrənilməsi və təbliği baxımından belə tədbirlərin əhəmiyyətini vurğulayıb.

Qəbələ rayon Heydər Əliyev Mərkəzində “Heydər Əliyev və təhsil siyasəti” adlı tədbir təşkil olunub. Qeyd edilib ki, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra elm və təhsilə göstərilən diqqət və qayğı elə ilk günlərdən özünü göstərib.

Zaqatala rayon Heydər Əliyev Mərkəzində isə “Birgəlik” adlı tədbir təşkil edilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli liderin həyatı və siyasi fəaliyyətinə həsr olunmuş sərgi ilə tanış olublar. Çıxışlarda Ulu öndərin fəaliyyətindən, tarixi xidmətlərindən, xilaskarlıq missiyasından danışıblar. Balakən regional “ASAN Xidmət” Mərkəzinin könüllüləri tərəfindən Heydər Əliyevə həsr olunmuş ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

***





Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Q.Əliyev adına Üçoğlan kənd Mədəniyyət evinin təşkilatçılığı ilə keçirilən tədbirdə Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında məlumat verilib. Daha sonra Ulu öndərə həsr olunmuş şeirlər söylənilib, mahnılar ifa edilib.

***

Şərqi Zəngəzur Regional Mədəniyyət İdarəsi Qubadlı rayon nümayəndəliyi Şərqi Zəngəzur Regional Gənclər və İdman İdarəsi ilə birgə “Heydər Əliyev və Azərbaycan mədəniyyəti” adlı tədbir keçirib. Çıxış edənlər bildiriblər ki, Ulu öndər Heydər Əliyev həmişə xalqın mədəni dəyərlərini, milli sərvətlərini qorumaq üçün mübarizə aparıb. Mədəniyyət evinin bədii qiraət dərnəyinin üzvləri şeirlər söyləyiblər.

***

Masallı rayon Mərkəzi Kitabxanasında “Ulu öndər Heydər Əliyev və xarici siyasət” mövzusunda tədbir keçirilib. Çıxışlarda Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunması, inkişafı istiqamətində çoxşaxəli fəaliyyətindən bəhs edilib.

Cəlilabad rayon Heydər Əliyev Mərkəzində “Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır” başlıqlı sərgi təşkil edilib. Sərgidə Ulu öndərin Cəlilabad rayonuna səfərlərini, həmçinin həyatı və siyasi fəaliyyətini özündə əks etdirən fotolar, kitablar nümayiş olunub.

**Hazırladı: N.Məmmədli**

# Gənc müğənninin klipi təqdim olunub

Lənkəran şəhər Mədəniyyət Mərkəzində gənc müğənni Allahverən Pərvizoğlunun “Ata həsrəti” mahnısına çəkilmiş klipin təqdimat mərasimi keçirilib.

Mərkəzin direktoru Anar Kəkəyev müğənninin ifaçılığı haqqında məlumat verib. Digər çıxış edənlər A.Pərvizoğlunun rayonun mədəni-kütləvi tədbirlərində fəal iştirakından, qazandığı nailiyyətlərdən danışıb, yaradıcılıq uğurları arzulayıblar.

Müğənni yaradılan şəraitə görə Lənkəran-Astara RMİ-nin rəhbərliyinə və qonaqlara təşəkkür edib.

# Məktəblilərə Azərbaycan xalçaları haqqında məlumat verilib

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyinin Xalça muzeyi filialının təşkilatçılığı ilə milli xalça qruplarına həsr olunmuş məktəblilərin iştirakı ilə “Azərbaycan xalçaları” mövzusunda da tədbir keçirilib.

İştirakçılar əvvəlcə muzeyin fondunda qorunan xalça məmulatlarının sərgisi ilə tanış olublar.

Sonra muzeyin əməkdaşı Dilarə Rüstəmova tərəfindən Azərbaycanda mövcud olan xalçaçılıq qrupları, ayrı-ayrı bölgələrin xalça elementləri, toxunuş texnikaları, xalçaçılığın yaranması və təbliği yolu haqqında məruzə oxunub. Mühazirədə əsasən Quba-Şirvan xalça qrupuna aid xalçalar, onların özünəməxsus çalarları, ilmə və ornamentləri haqqında geniş məlumat verilib.

Eyni zamanda Xaçmaz xalçaçılıq məktəbi, uzun illər fəaliyyət göstərən xalça sexi, peşəkar xalçaçılar haqqında da söz açılıb.

# Naxçıvan kuklaçılarının “Sınaq” studiyası

Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin müvafiq əmri əsasında dövlət statuslu teatrlarda teatr-studiyaları yaradılır. Naxçıvan Dövlət Kukla Teatrında “Sınaq” teatr-studiyası yaradılıb.




Yaradıcılıq potensialının inkişaf etdirilməsi məqsədilə atılan bu addım teatr sahəsində kadr probleminin də aradan qaldırılmasına köməklik edəcək. Studiyada bir dərs ili müddətində aktyorluq, səhnə danışığı, plastika və ritmika, kuklaların hazırlanması və təlim texnikası ixtisasları tədris olunacaq.

Teatr-studiyanın rəhbəri Naxçıvan Dövlət Kukla Teatrının ədəbi-dram hissə rəhbəri Durna Təhməzovadır. Dərslər ödənişsizdir. Tədrisin sonunda kursu uğurla bitirənlərə sertifikatlar veriləcək və onların iştirakı ilə hazırlanan tamaşa teatrın repertuarına salınacaq.

Studiya ilə yanaşı, teatrda repertuar tamaşalarının hazırlanması prosesi də gedir. Yazıçı Vüqar Haqverdiyevin “Qarınqulu ayı balası” nağılının motivləri əsasında rejissor Şirzad Abutalıbovun quruluşunda eyniadlı tamaşa hazırlanır. Tamaşanın quruluşçu rəssamı Rəfael Qədimov, bəstəkarı Əli Məmmədovdur.

Onu da qeyd edək ki, yaradıcı heyət, əslində, yeni mövsümünü avqustun ortalarında açıb və hər həftə iki dəfə olmaqla muxtar respublikanın ayrı-ayrı rayonlarında tamaşalar göstərib.

# Təsviri sənətimizin 95 yaşlı sənətkarı



Azərbaycan təsviri sənətində özünəməxsus yeri olan Xalq rəssamı Tofiq Ağababayevin sentyabrın 8-də 95 yaşı tamam olub. Bu münasibətlə sentyabrın 9-da mədəniyyət naziri Adil Kərimli yubilyar sənətkarı evində ziyarət edib.

Görüşdə Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, mədəniyyət nazirinin müavinləri, nazirliyin əməkdaşları iştirak ediblər.

Tofiq Ağababayevi yubileyi münasibətilə təbrik edən nazir sənətkara möhkəm cansağlığı və bundan sonra da yaradıcılıqla dolu fərəhli ömür arzulayıb.

Xalq rəssamının Azərbaycan təsviri sənətinə verdiyi töhfələri, həmçinin zəngin mədəniyyətimizin təbliği sahəsində səmərəli fəaliyyətini yüksək qiymətləndirən Adil Kərimli yubilyara Mədəniyyət Nazirliyi kollektivinin ən xoş arzularını çatdırıb.

Azərbaycan mədəniyyətinin inkişafında mühüm xidmətləri olan sənətkara nazirliyin fəxri diplomu təqdim edilib.

Xalq rəssamı göstərilən diqqətə görə təşəkkürünü bildirib.



Tofiq Ağababayev 1928-ci ildə Bakıda anadan olub. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində və Sankt-Peterburq Rəssamlıq Akademiyasının Keramika-şüşə fakültəsində təhsil alıb. Monumental dekorativ-tətbiqi sənət, qrafika və boyakarlıq sahəsində diqqətəlayiq əsərlər yaradıb. Əsərləri Azərbaycanla yanaşı, bir sıra ölkələrdə də muzey və şəxsi qalereyalarda saxlanılır. Paytaxtımızın simvolik açarının düzəldilməsi də sənətkarın adı ilə bağlıdır.

Onu da qeyd edək ki, qəzetimizin yaxın saylarının birində təsviri sənətimizin 95 yaşlı sənətkarı ilə geniş müsahibəni oxuculara təqdim edəcəyik.

# Filarmoniya zəngin proqramla tamaşaçıları gözləyir

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası növbəti sənət mövsümünün açılışına hazırdır.

Bu barədə filarmoniyadan məlumat verilib. Bildirilib ki, mədəniyyət ocağının yeni mövsümü sentyabrın 18-də – Milli Musiqi Günündə açılacaq. Həmin gün Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı başlayacaq. Filarmoniyanın Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Rəqs Ansamblı Heydər Əliyev Sarayında Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin nümayişində iştirak edəcək. Sentyabrın 19-da isə filarmoniyanın yay zalında Azərbaycan kinosunun 125 illiyinə həsr olunmuş konsert keçiriləcək.

Sənət ocağında Xalq artistləri Tofiq Bakıxanov, Nəriman Məmmədov və Eldar Mansurovun yaradıcılıq gecələri, rus bəstəkarı Sergey Raxmaninovun 150, violonçel ifaçısı Sabir Əliyevin 95, bəstəkar, Xalq artisti Fərəc Qarayevin 80 və bir sıra incəsənət xadimlərinin yubiley tədbirləri təşkil olunacaq.

Mövsüm ərzində xarici ifaçıların və tanınmış musiqi kollektivlərinin iştirakı ilə konsertlər də nəzərdə tutulub. Fransada yaşayan soydaşımız, Azərbaycanın Əməkdar artisti Adilə Əliyeva öz çıxışı ilə klassik musiqi həvəskarlarını sevindirəcək.

Filarmoniyanın gənc və istedadlı ifaçılara, bəstəkarlara öz yaradıcılıqlarını böyük səhnədə ortaya qoymaq imkanı verən "Gənclərə dəstək" layihəsi çərçivəsində də konsertlər davam etdiriləcək.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə ötən ilin yazından həyata keçirilən "Yeni adlar" layihəsi bu mövsümdə də musiqimizin yeni simalarını ictimaiyyətə tanıdacaq.

# Kuklaçıların yeni mövsümü

Yay məzuniyyətindən sonra tamaşaçılarını qarşılamağa hazırlaşan sənət ocaqlarından biri də Azərbaycan Dövlət Kukla Teatrıdır. Uşaq və yeniyetmələrin sevimli məkanı pərdələrini yeni tədris ilinin ilk günü – sentyabrın 15-də açacaq. Həmin gün tamaşaçıları həm premyera, həm də "Oyuq" teatr-studiyasının 10 illiyinə həsr olunmuş konsert proqramı gözləyir.

Çağdaş zamanda uşaqların zövqlərini, necə deyərlər, "Z" nəslinin teatrdan nə gözlədiklərini, hüdudsuz xəyal dünyalarını səhnədən duyub ödəyə bilmək elə onların təxəyyülləri ilə ayaqlaşa biləcək yaradıcı yanaşma, kreativlik tələb edir. Azərbaycan Dövlət Kukla Teatrında mövsüm ərəfəsi yaradıcılıq prosesinə nəzər saldıqda bunun bir daha şahidi oluruq.

Hazırda teatrda iki yeni tamaşanın son məşqləri gedir. Bu barədə teatrın direktoru Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə məlumat verir: "Bildiyiniz kimi, biz milli kukla sənətimizi, müasir uşaqların teatrdan, səhnədən istəklərini onların anlayacaqları formada təqdimata məsuluq. Bu gün uşaqlar, ələlxüsus da, kiçik yaş qrupu üçün bədii nümunələr tapmaq və kukla estetikasında səhnəyə qoymaq elə də asan deyil. Çünki o yaş qrupu daha çox animasiya dilini – özü də valideynlərinin çox vaxt başları qarışsın deyə əllərinə verdikləri "ağıllı" telefonlardakı effektli oyun və animasiyaları gördükləri üçün – daha asan qavrayırlar. Amma bütün bunlara rəğmən biz bacardığımız kimi işimizin öhdəsindən gəlməyə çalışırıq. Fürsətdən istifadə edib bir daha uşaq yazıçı və dramaturqlarına müraciət edərək, əsərlərini bizə göndərmələrini xahiş edirəm".

Teatr rəhbəri deyir ki, biz mütəmadi olaraq çağdaş yazıçıların da uşaqlar üçün yazılan əsərlərinə yer verməyə çalışırıq. Onlardan da biri balacalar arasında sevilən və tanınan uşaq yazarı Sevinc Nuruqızıdır. Elə səhnədə də o müəllifin son illər xüsusi populyarlıq qazanan "Melisa" nağıl-povesti əsasında səhnələşdirilən eyniadlı tamaşanın son məşqi idi.





Rəngarəng səhnə tərtibatı, dörd fəsli, daha doğrusu, tamaşadakı dörd məkan və zaman fərqini ehtiva edən konstruksiyalı tərtibatın uşaqların xəyal dünyasına xitabı maraqlı işdən soraq verir.

Səhnələşdirmə və quruluş müəllifi Saida Haqverdiyevanın təbirincə bu, sonu nikbin bitən hüznlü, həsrət dolu hekayənin qəhrəmanı uşaqlara sevgini, sədaqəti, heç vaxt öləziməyən ümidi, inamı və ən əsası da güclü olmağı təlqin edir: "Tamaşa çəhrayı saçlı gəlincik haqqında hekayətdir. Onun gözü ilə həyat həqiqətlərini izləmək həyəcan və sevinc bəxş edir. Bu, həyatın yalnız çəhrayı rəngdən ibarət olmadığını sübut edən sevgi hekayətidir. Melisa görür, hiss edir, düşünür, anlayır və anladır. Bizi dəfələrlə görüb keçdiklərimizə yenidən baxmağa çağırır. Yenidən və daha həssas. O, itkini çox erkən dadıb, sahibindən, balaca Zəhradan illər əvvəl ayrı düşüb. Amma qovuşmaq ümidini itirməyib. Onun başına gələnlər izləyənləri sürət qatarı kimi həyatın içi ilə aparmağı bacarır. Bu qatarın pəncərələrindən görünənlər isə həyatın özüdür. Melisa həyatı anladır. Yaxşısı-pisi ilə, sevinci-kədəri ilə. O, sadəcə gəlincik deyil, o sadə həqiqətləri anlatmağa çalışan çəhrayı saçlı sevgidir. O əmin edir, inandırır ki, bu dünyanı yalnız sevgi xilas edə bilər… Biz də məhz bu sevgi və inamı uşaqlara göstərməyə, onların dünyasına bir də bu yolla daxil olmağa çalışırıq".

Birhissəli uşaq tamaşasında fərqli texnikalı kuklalardan, işıq həlli və tərtibatdan istifadə olunub. Səhnə işinin quruluşçu rəssamı Əfşan Əsədova, bəstəkarı Röya Hüseynovadır. 6 yaşdan yuxarı tamaşaçılar üçün nəzərdə tutulan tamaşada musiqi həlli də ideyanı tamamlayıb, mövzunun ifadəsini asanlaşdırır.

Teatrda məşqləri gedən növbəti səhnə işi – böyüklər üçün nəzərdə tutulan və əsasən də festivallarda nümayiş üçün hazırlanan "İtki" adlı kukla tamaşasıdır.

Tamaşanın ideya və quruluş müəllifi Anar Məmmədovun fikrincə, kukla teatrı və tamaşası deyərkən yalnız azyaşlıların nəzərdə tutulması anlayışı bizdə formalaşıb: "Olduğumuz xarici ölkələrdə, festival və müsabiqələrdə gördüyüm mənzərə bunu deməyə əsas verir ki, bizdə valideynlər, böyüklər kukla tamaşasını nədənsə, məhz uşaqların "ayağına yazırlar". Amma bu, yanlışdır. Çünki kukla tamaşası bir janr, səhnə sənəti formasıdır. Sadəcə, təqdimat vasitəsi canlı plan, aktyor yox, kukladır. Amma xaricdə nəinki böyüklər, elə uşaqlar üçün olan kukla tamaşalarına da kütləvi maraq var. Düzdür, bizdə də valideynlər, nənə-babalar tamaşaları balacalar ilə birgə izləyirlər. Amma bu, kütləvi deyil. Elə "İtki" də bu ideyadan əmələ gəldi. Tamaşa ətrafı smartfonlardan, "ağıllı" telefonlardan asılı qalıb, diqqətdən uzaq düşən azyaşlıdan bəhs edir. O, nə qədər oynamaq, valideynləri ilə zaman keçirmək, dostları ilə əylənmək istəsə də, canlı ünsiyyətə qaçsa da, bir o qədər ətrafı artıq sosial şəbəkələrin, onlayn platformaların əsiridir. Bu isə balacanı küsdürür və o, sonda onlara təslim olur...".

Açıq kukla oyunu texnikasında qurulan tamaşanın rəssamı Rəna Abbasovadır. Səhnə əsəri oktyabrın sonlarında tamaşaçısı ilə görüşəcək...

**H.Rüstəmova**

# "Antiqona" Gənc Tamaşaçılar Teatrının səhnəsinə çıxacaq

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında fransız dramaturqu Jan Anuyun "Antiqona" əsəri əsasında hazırlanan tamaşanın məşqlərinə başlanılıb.

Əsərin quruluşçu rejissoru Əməkdar artist Nofəl Vəliyev, rəssamı Telman Şıxıyevdir. Rəqs və plastik həll isə Ceyhun Dadaşova aiddir.

Müəllifin 1943-cü ildə, II Dünya müharibəsinin qızğın çağında qələmə aldığı və indiyədək bir çox ölkələrdə tamaşaya qoyulan "Antiqona", mövzusu antik ədəbiyyatdan gəlsə də, bütün dövrlərlə səsləşən əsərdir.



Çar Edipin ölümündən sonra oğlanları Etokl və Polinik növbə ilə ölkəni idarə etməlidirlər. Etokl hökmranlıq müddətini başa vurur, amma hakimiyyəti qardaşı Polinika verməkdən imtina edir. Polinik öz tərəfdarlarını yığıb qiyam qaldırır. Hər iki qardaş döyüşdə həlak olur. Əmiləri Kreon çar elan olunur. Kreon Etoklı təntənə ilə dəfn etdirsə də, qiyamçı Polinikin cəsədini qurd-quşa yem olması üçün şəhər meydanının ortasına atır. Onu dəfn etməyə cəhd edən kəs ölümə məhkum olunacaq. Bu cəhdi Polinikin kiçik bacısı Antiqona həyata keçirmək istəyir. O, keşikçilər tərəfindən tutularaq Kreonun yanına gətirilir. Kreon onu seçim qarşısında qoyur: ya ölümü qəbul etmək, ya da bu niyyətdən daşınıb sağ qalmaq.

Antiqona qardaşını dəfn etməklə ölümü seçir. O, seçimi ilə azadlığını bəyan edir. Müəllif bu əsərində dünyanın Antiqona kimi insanlara görə var olmasını vurğulayır.

Premyerası noyabr ayına nəzərdə tutulan tamaşada Əməkdar artist Güşvər Şərifova, aktyorlar Kərəm Hadızadə, Aygün Fətullayeva, Anar Seyfullayev, Rəşad Səfərov, Hilal Dəmirov, Şəbnəm Hüseynova, Fəridə Qurbanova, Ramiq Nəsirov, İlhan Sadıqov, Nurlan Süleymanov, Ümman Budaqov iştirak edirlər.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (60)

### 1995-ci il 17 dekabr

Prezident Heydər Əliyev Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə Xalq şairi Nəbi Xəzrinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb və 70 illik yubileyi münasibətilə şairi təbrik edib.

"Sizin bəşəri duyğuları vəsf edən şeir və poemalarınız, xalqımızın qəhrəmanlıq tarixini tərənnüm edən səhnə əsərləriniz insanlarda ruh yüksəkliyi və gələcəyə sarsılmaz inam doğurur. Tükənməz ilhamla yaratdığınız əsərlərdə həmişə mənəviyyat problemləri ön planda durmuş, yaşadığımız dövrün, zamanın nəbzi duyulmuşdur", – deyə təbrik məktubunda bildirilirdi.

Həmin gün Xalq şairi Nəbi Xəzrini qəbul edib.

### 1995-ci il 19 dekabr

Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə yazıçı Yusif Səmədoğlunun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb və 60 illiyi münasibətilə yazıçını təbrik edib.

"Gülüstan" Sarayında Yusif Səmədoğlunun yubiley mərasimində çıxış edib.

*"...Yusif Səmədoğlu bizim millətimizin xoşbəxt insanlarından biridir. Çünki o, böyük şair, böyük insan Səməd Vurğunun oğludur... Ancaq bununla yanaşı, bu kökün üstündə böyüyüb atasının yolunu davam etdirmək və cəmiyyətdə özünəməxsus yer tutmaq, – bu, böyük xoşbəxtlikdir.*

*...Yusifin yaratdığı əsərlər haqqında, onun milli ədəbiyyatımızın, mədəniyyətimizin inkişafında xidmətləri haqqında burada deyildi. Eyni zamanda Yusif atası kimi böyük ictimai xadimdir. 1990-cı ilin yanvar hadisələri xatirimdədir. O vaxt mən Moskvada da çox məhdud şəraitdə yaşadığıma görə məlumat almaq çətin idi... "Azadlıq" radiostansiyasının verilişlərini tutdum... Yusif Sovetlər qoşun hissələrinin Bakıya girməsini "Azadlıq" radiostansiyasına telefonla nə qədər həyəcan hissi ilə bildirirdi... Azərbaycanın o ağır dövründə Yusif Azərbaycanın milli mənliyini qorumaq sahəsində çox fədakar şəxslərdən biri idi...*

*Burada Elçin 70-ci illəri, onun sözü ilə desək, nostalgiya ilə xatırladı. Doğrudan da, o illərdə 60-70-ci illərdə ədəbiyyata, mədəniyyətə gəlmiş gözəl bir nəsil indi artıq ədəbiyyatımızın, mədəniyyətimizin aparıcı qüvvələridir: Yusif də, Anar da, Maqsud da, Elçin də, başqaları da. Ona görə də o illəri xatırlamağa əsas var. Ancaq bu günlər indiyədək yaşadığımız dövrlərin bəlkə də hamısından qiymətlidir. Çünki biz indi milli azadlığa çıxmışıq, dövlət müstəqilliyini əldə etmişik. Yaşayışımız çətindir, ağırdır. Bilirəm ki, mədəniyyət xadimləri üçün də çətindir. Amma bunların hamısının müqabilində bizim böyük nailiyyətimiz var: Azərbaycanın dövlət müstəqilliyi.*

*Şəxsən mən istəyirəm ki, bu çətinliklərdən tez çıxaq və bunun üçün çalışırıq. Ancaq xatirinizə salın – böyük şairimiz Mirzə Ələkbər Sabir hansı vəziyyətdə yaşayırdı və hansı ağır ehtiyaclar içində dünyadan getdi. Yaxud böyük mütəfəkkir, yazıçı Cəlil Məmmədquluzadə hansı şəraitdə yaşayırdı. Ancaq onların adı, yaradıcılığı, qoyduqları irs yaşayır və biz bunlarla fəxr edirik.*

*Bu günümüzü gələcəyə aparan ziyalılarımız, mədəniyyət, elm xadimlərimiz, xalqın qabaqcıl adamları – həm bugünkü, həm də gələcək nəsil olacaqdır. Bu adamların içərisində görkəmli yazıçılarımız, bəstəkarlarımız, alimlərimiz, rəssamlarımız, incəsənət xadimlərimiz daim qiymətli olacaq və biz əlimizdən gələni edəcəyik ki, onların yaratması, yaşaması üçün şərait yaradılsın...".*

### 1995-ci il 23 dekabr

Görkəmli rus şairi Sergey Yeseninin 100 illiyinə həsr olunmuş gecədə iştirak edib.

### 1995-ci il 25 dekabr

İctimai-siyasi xadim, yazıçı-dramaturq Şıxəli Qurbanovun 70 illiyi münasibətilə keçirilən yubiley gecəsində iştirak edib.

### 1995-ci il 27 dekabr

Xalq şairi Osman Sarıvəllinin 90 illiyinə həsr olunmuş yubiley tədbirində iştirak edib.

### 1995-ci il 30 dekabr

Səttar Bəhlulzadə adına sərgi salonunda 9 yaşlı rəssam Əli Cəfərin sərgisinin açılışında çıxış edib.

*"...İncəsənətdə həmişə rəqabət var. Doğrudur, bəzən bu, paxıllıq kimi hissləri də meydana çıxarır, qısqanclıq doğurur. Amma bunlar hamısı keçicidir, ayrı-ayrı adamlar arasında olan münasibətlərdir. Ancaq ümumi işimizin mənasına baxanda, bunlar hamısı yeni əsərlərin yaranmasına gətirib çıxarır. Ona görə də doqquz yaşlı uşağın bu cür sərgisini görəndə gərək bizim təcrübəli rəssamlarımız düşünsünlər ki, onlar bir müddətdən sonra yeni sərgi təqdim etsinlər və biz də deyək ki, bəli, təcrübəli rəssamlar da çalışırlar, yeni gələn nəsillər də rəssamlıq sənətini inkişaf etdirir.*

*Sənət dünyasına yeni gəlmiş, artıq özünü çox gözəl təqdim edən rəssamı təbrik edirəm... Bilirsiniz, tarix belə hadisələrin də şahididir ki, bəzən parlaq istedadlar sonra müəyyən səbəblərdən sönürlər. Bu istedadı sönməyə qoymaq olmaz. Güman edirəm ki, Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı və başqa müvafiq təşkilatlar bu rəssam uşağın gələcək inkişafı üçün lazımi şərait yaradacaqlar...".*

### 1996-cı il 26 yanvar

Əməkdar elm xadimi, tarixçi Sara Aşurbəylini 90 illiyi münasibətilə təbrik edib. "Sizin tarixi həqiqətlərə istinad edən fundamental elmi tədqiqatlarınız Azərbaycan elminə sədaqətlə xidmətin parlaq nümunəsidir", – deyə təbrikdə vurğulanırdı.

### 1996-cı il 29 yanvar

Görkəmli alim Sara Aşurbəylinin 90 illiyinə həsr olunmuş gecədə iştirak edib.

**Hazırladı: Vüqar Orxan**

***(davamı var)***

№67 (2036)
13 sentyabr 2023
www.medeniyyet.az

# Arif Məlikov – əbədiyyətə qovuşan əfsanə

*Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam qətiyyətlə deyirəm.*

Ümummilli lider
Heydər Əliyev

## Tar ilə kiçik müqəddimə

Arif müəllimin musiqi aləminə gəlişi tar ifaçılığından başlamışdı. O, A.Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunda (indiki Milli Konservatoriya nəzdində Musiqi Kolleci) tar tədrisi üzrə ən qabaqcıl və təcrübəli müəllim kimi tanınan Adil Gəray Mahmudbəylinin sinfində (1948-1951) təhsil alıb. 2009-cu ildə Muğam teatrında Adil Gərayın yaradıcılıq gecəsində Arif müəllimin çıxışından bir epizodu burda qeyd eləmək yerinə düşər: "...Texnikumda oxuyarkən mənim ilk müəllimlərim Əhməd Bakıxanov və Adil Gəray olublar. Bəstəkar olmağıma görə də ilk olaraq onlara borcluyam...".

Texnikumu bitirən Arif Məlikov təyinatla Şuşaya işləməyə gedir. Lakin bəstəkarlıq sənətinə sonsuz sevgi onun gələcək musiqi həyatını kökündən dəyişəcək addımın atılmasına səbəb olur. Bir il ərzində qəbul imtahanlarına müstəqil hazırlaşaraq zəmanəmizin böyük bəstəkarı, görkəmli pedaqoq Qara Qarayevin sinfinə qəbul olur.

## İki ustadın xeyir-duası

Qara Qarayev nümayəndəsi olduğu bəstəkarlıq məktəbinin gələcək inkişafına təsir göstərə biləcək addımın məsuliyyətini dərindən dərk edirdi. Buna görə qarşısına qoyduğu missiyanı həm də pedaqoji müstəvidə həyata keçirirdi. Dərs dediyi gənclərə də daima xüsusi nümayiş və pafosdan uzaq olan çağdaş yaradıcı addımlara sövq edir, ilk gündən yeni nəsil tələbələrini zamanın tələblərinə kökləyirdi.

Konservatoriyada təhsil illərini xatırlayan Arif Məlikov deyir: "...Qarayevin sinfində məşğələ keçmək çox maraqlı idi. Hər bir tələbənin fərdi yaradıcı xüsusiyyətlərini dərindən duymaq, gənc musiqiçinin çalışmalarını düzgün istiqamətləndirmək, "istedad axını"nı həqiqi məcraya yönəltmək qabiliyyəti onun pedaqoji istedadının xüsusiyyətlərindən idi... Qarayevin sinfində keçirdiyim saatlar indi də yadımdadır. Dərsin son dəqiqəsinə kimi gərginlik içində olurdum, bu gözəl müəllimin dediklərindən heç bir şeyi ötürməməyə çalışırdım. Sözlərinin mənə və ya başqasına ünvanlanması əhəmiyyətli deyildi. Müstəsna, hərtərəfli bilgili müəllim idi, tələbələrin əsərlərinə diqqətlə yanaşırdı. Qara Qarayevin mənə çox böyük təsiri olmuşdur...".

Arif Məlikovun həyatında mühüm rol oynayan digər böyük sənətkar maestro Niyazi idi. Görkəmli dirijor həmişə istər ifaçılıq, istərsə də bəstəkarlıq sahəsində istedadları axtarar, onların gələcək yaradıcı həyatını stimullaşdırırdı. Arif müəllimin ilk partiturasının taleyi belə olmuşdur: "...Üçüncü kursda oxuyurdum. Getdim Filarmoniyaya, Niyazinin qəbuluna və balet süitamın partiturasını ona təqdim etdim. Niyazinin rəyi mənim üçün olduqca əhəmiyyətli idi. Əvvəlcə çox soyuq yanaşdı. Partituraya baxdıqdan sonra yumşaldı, hətta əlavə elədi ki, süitanı ifa edəcəkdir. Üstəlik soruşdu: "Bəs tələbə üçün partituranı kim köçürəcəkdir?" Niyazinin ifasında balet süitamı eşitmək arzusu o qədər güclü idi ki, orkestr səslərini özüm köçürəcəyimi bildirdim...".

## "Məhəbbət əfsanəsi"nə gedən yol

1958-ci ildə Qara Qarayevin müəllifi olduğu "İldırımlı yollarla" baletinin Leninqradda S.M.Kirov adına Akademik Opera və Balet Teatrında (indi Sankt-Peterburq Mariinski Teatrı) uğurlu premyerasından sonra müəllifə həmin səhnə üçün Nazim Hikmətin librettosu əsasında "Məhəbbət əfsanəsi" baletini yazmaq təklif edilir. Qara müəllim isə öz növbəsində həmin sifarişi yeni məzunu Arif Məlikova yönləndirir.

Sənət dünyası həyat kimi estafetdir. Üstəlik, hər müəllimdə yetirdiyi tələbəsinin fərdi bacarığına həssas yanaşmaq, düzgün istiqamətə yönləndirmək bacarığını müşahidə etmək olmur. Amma Arif Məlikovun gənc yaşlarında yaratdığı "Məhəbbət əfsanəsi" baletinin bu zamana qədər dünya səhnələrində öz yüksək mövqeyini saxlayaraq milli bəstəkarlıq məktəbimizin uğurlarından birinə çevrilməsi həm də ustadı Qara Qarayevin vaxtında verdiyi düzgün qərarın uzaqgörənliyini sübut edir.



Arif Məlikov balet üzərində işlədiyi dövr Sovet İttifaqında Xruşşov "mülayimləşmə"sinin başlanğıcına təsadüf edirdi. "Dəmir pərdə"nin bir qədər qalxması sərhədləri aşan informasiya axınına təkan verdi. Həmin tendensiya incəsənət sahəsində daha qabarıq şəkildə özünü göstərirdi. Moskvanın Böyük və Sankt-Peterburqun Mariinski teatrları ilə Nyu-York və Parisin balet truppalarının qarşılıqlı qastrol səfərləri mədəniyyətlər arasında dialoqa körpü salırdı. Məsələn, gürcü-rus əsilli Corc Balançinin (Georgi Melitonoviç Balançivadze – Y.N.) quruluşunda Paris balet truppasının "Büllur saray" (J.Bizenin I simfoniyası əsasında) tamaşası sovet tamaşaçıları və mütəxəssislərində böyük maraq yaratmışdı. Eləcə də Qərb tamaşaçısı ən yaxşı sovet balet tamaşaları, balet estetikası ilə tanış olurdular.

Məhz belə bir zamanda Arif Məlikovun "Məhəbbət əfsanəsi" xoreoqraf Yuri Qriqoroviç üçün göydəndüşmə idi. Gənc xoreoqraf hər iki balet mədəniyyətinin əsas xüsusiyyətlərini sintez edərək obrazların mənəvi aləminin açımına hesablanan bütün cizgilərin ön plana keçməsinə əsaslanan konsepsiya yaratdı. Onun təfsirində, rəssam Simon Virsaladzenin yüngül dekorları fonunda bütün iştirakçılar, öz rəqs plastikası ilə səhnə məkanı doldurmaqla, dinləyicilərin diqqətini hadisələrin fasiləsiz inkişafına yönəltməliydilər.

Bu baxımdan nəzərdə tutulan ideyanın həyata keçməsi üçün Arif Məlikovun təklifi ilə quruluşçu dirijor kimi maestro Niyazinin dəvət olunması tamaşanın uğurlu olmasının mühüm səbəblərindən biri idi. Bəstəkar danışırdı ki, Mariinski Teatrının ştatında 7 dirijorun olmasına baxmayaraq, mən məhz Niyazinin bu layihəyə cəlb olunmasında israr etdim. Maestro "Məhəbbət əfsanəsi"nin premyerasından sonra mətbuata verdiyi açıqlamasında "...Bu, musiqinin, rəqsin və tərtibatın vəhdət təşkil etdiyi monolit əsərdir və düşünürəm ki, bu əsər hansısa dahinin əlinin bircə hərəkəti ilə yaranmışdır..." fikri ilə balet üzərində işləyən komandanın vahid hədəf ətrafında kökləndiyini vurğulayır.

XX əsr müasir bəstəkar təfəkkürünün ünlü simalarından biri Dmitri Şostakoviçin "Məhəbbət əfsanəsi" barədə söylədiyi sözlər də diqqətəlayiqdir: "...Partituranın dərin musiqi dramaturgiyası, onun daxili inkişafı, qəhrəmanların dəqiq və ifadəli musiqi xarakteristikası, xüsusi parlaqlığı, çoxlu tapıntıları ilə seçilən nadir orkestrləşdirmə məharəti bu istedadlı musiqi əsərini böyük maraqla dinləməyə vadar edir... Yeni balet sovet xoreoqrafiyasında böyük hadisədir. Mübaliğəsiz demək olar ki, bu tamaşa bir mərhələdir".

## Orkestr palitrası ustası

Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadənin bəstəkar haqqında bir fikrinə diqqət yetirək: "...Arif Məlikovu, doğrudan da, orkestrin cadugəri adlandırmaq olar. Tembrləri seçmək, onları bir-birinə qatmaq, cazibədar tembr dramaturgiyası qurmaq baxımından onunla yarışa bilən bəstəkar çətin tapılar...".

Tədqiqatçı alimin sözlərinə sübut kimi milli kinomuzun incilərindən biri, 1971-ci ildə rejissor Kamil Rüstəmbəyovun ekranlaşdırdığı "Axırıncı aşırım" bədii filmində bir epizoda diqqəti yönəltmək istərdim. Həmin film haqqında illər öncə çəkilən verilişdə çıxış edən Arif müəllim qeyd edirdi ki, K.Rüstəmbəyov mənə bu filmə musiqi yazmağı təklif edəndə daxilən buna hazır idim. Filmin musiqi materialı simfonik orkestrin bir çox ifadə imkanlarından istifadə edilərək lakonik şəkilli parçaların müxtəlif epizodlarda əsas dramatik məqamları qabartmağa hesablanıb.



Ekran əsərində Abbasqulu bəylə (Həsən Məmmədov) Qəmlo (Məlik Dadaşov) arasında əsas konflikt bir-birinə düşmən iki düşərgənin qarşılıqlı ziddiyyətini bütün açıqlığı ilə üzə çıxardır. Onların hər birinin öz əqidə həqiqəti vardır. Abbasqulu bəy mövcud vəziyyəti təmkinli tərzdə, tələfatsız şəkildə həll etməyə çalışırsa, Qəmlo, əksinə, qorxu, ölüm, amansızlıq müstəvisində həyata keçirmək niyyətindədir. Onların Səmədin (Sadiq Hüseynov) evində üz-üzə gəldiyi səhnədə "fırtına qabağı sakitliyi" xatırladan ab-havanın çökdüyü otağın təsviri yuxarı yaylı alətlər qrupunun sul ponticello tremolosu fonunda, başlarda keçən motiv vasitəsilə göstərilir. Qəmlonun qapını döyərək fasiləsiz "Səməd, Səməd" qışqırması ilə gərginliyinin tədricən artması, Abbasqulu bəyin Səmədə qapını açmağı tapşırdığı məqamdan başlayaraq dramatik partlayışa doğru sürətli hərəkət baş verir. Orkestr fakturasında harmonik sütunların ardıcıl təkrarı litavra və kiçik təbil arasında bölünən zərbələr fonunda qorxunc sima almaqla "zindana yönələn ağır çəkic" döyəcləməsini xatırladır.

Abbasqulu bəylə Qəmlonun dəhlizdə görüşdüyü anla musiqinin kulminasiya nöqtəsinin üst-üstə düşməsi, kəskin süjetli filmlərin qanunlarında olduğu kimi, fiziki hərəkətlərlə zəngin açıq emosional çıxışla sona çatmalıydı. Amma Qəmlo ünvanına eşitdiyi tənə dolu sözlərdən sonra özünü itirərək evi tərk eləyir. Abbasqulu bəyin həmin səhnədə qazandığı psixoloji qələbə kadrarxası musiqinin məna yükü ilə vahid məziyyət kəsb etmiş olur.

## Vətənpərvər örnəyi

Arif Məlikov həmişə xalqının ağır zamanlarında əsl milli ziyalı dürüstlüyü ilə öndə olmuşdur. Milli azadlıq tariximizin şanlı səhifəsi olan 1990-cı ilin Yanvar hadisələrində bəstəkarın istər Bakıda, istərsə də Moskvada göstərmiş olduğu cəsarət buna parlaq nümunədir. Xatırlatmaq istərdim ki, Arif Məlikov o vaxt SSRİ Ali Sovetinin deputatı idi. O, deputat səlahiyyətlərinin bütün imkanlarından istifadə edərək həmin faciə zamanı öldürülmüş, yaralanmış, günahsız həbsə alınmış vətəndaşların siyahılarının dəqiqləşdirilməsində, hadisə şahidlərinin söhbətlərinin sənədləşdirilməsində şəffaflığa nail olmaq üçün (halbuki o zaman bütün bunları eləmək çox çətin idi) əlindən gələni edirdi. Nəzərə alsaq ki, həmin dövrdə son nəfəsini verməyə hazırlaşaraq azğınlaşan sovet rejiminin gözündə heç kim bir dəyər kəsb eləmirdi, Arif Məlikov özünü təhlükəyə atmaqdan, başqa sözlə, "bucaq tiyəsinin üzərində" gəzməkdən qorxmayaraq əsl vətənpərvərliyini nümayiş etdirirdi.

O, SSRİ Ali Sovetinin sessiyasında cəsarətlə çıxış edərək Sovet İttifaqının rəhbəri M.Qorbaçova qarşı ciddi ittihamlar irəli sürdü. 20 Yanvarla bağlı bütün həqiqətlərin 1990-cı il 14 fevral tarixli sessiyasının gündəliyinə salınması üçün qüdrətli sənətkarın M.Qorbaçovla sinirli dialoqu zamanı sonuncunun: " ...Siz niyə belə əsəbisiniz?" replikasına Arif müəllim "Bakı şəhərinin qana bulaşmış küçələrini, onlarla qətlə yetirilmiş, yaxud ömürlük şikəst olmuş insanları görən bir şəxs kimi mən necə olmalıyam?..." cavabını vermişdi.

Bəstəkar özünün vətəndaşlıq borcu hesab etdiyi "Mən ittiham edirəm..." fundamental kitabında duyğu və təcrübələrini, Vətənə münasibətini aydın şəkildə ortaya qoymuşdur. 1994-cü il Bakıda "Gənclik" nəşriyyatında çap olunmuş həmin kitabda A.Məlikov qürurla deyirdi: "Hər bir insan ilk növbədə vətəndaş olmalıdır... Və Azərbaycan xalqı ilk dəfə olaraq çiyinlərini düzəltmək, səsini ucaltmaq, öz həqiqətini tapmaq istəyəndə onu cəzalandırmaq qərarına gəldilər. Lakin unutdular ki, insanlara atəş açmaq olar, amma onu diz çökdürmək olmaz...".

## Ulu öndərlə ünsiyyət

Bu il ölkəmizdə və onun hüdudlarından kənarda 100 illiyi təntənə ilə qeyd edilən Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik elədiyi bütün illərdə mədəniyyət və incəsənət sahələri həmişə diqqət mərkəzində olmuşdur. Dahi şəxsiyyətin: "Biz nadir irsin varisləriyik, hər bir Azərbaycan vətəndaşı bir əsrə layiq olmağa çalışaraq böyük tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dününinə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır" fikri zəngin mənəviyyatın qorunmasında özünün daşıdığı məsuliyyət hissinə nümunə kimi misal çəkmək olar.

Heydər Əliyevin görkəmli mədəniyyət xadimlərinə diqqətinə daha bir nümunə kimi 12 dekabr 1998-ci ildə "İstiqlal" ordeni təqdim olunan Arif Məlikovun çıxışından bir epizodu səsləndirmək yerinə düşər: "Vaxtilə Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirilirdi. Siz mənə söz verdiniz, orada çıxış etdim və salonda oturanlara bir sual verdim. Soruşdum, dünya tarixindən kim bir misal gətirə bilər ki, ölkə başçısı bəstəkarı Azərbaycan Dövlət Filarmoniyasının binasından uzun məsafədə qəbiristanlığa qədər çiynində aparıbdır? Heç kim ikinci belə bir adam tapa bilmədi. Mən bu faktı nəyə görə dedim? Çünki bu fakt Sizinlə, həm də mənim ikinci atam Qara Qarayevin adı ilə bağlıdır. Mən onun tələbəsiyəm...".

Heydər Əliyevin qüdrətli duyumu, dərin hissiyyatı Arif Məlikovun simfonik yaradıcılığında zirvə əsərlərindən biri – VIII simfoniyanın yaranmasına səbəb olmuşdur. 1994-cü ildə Ulu öndərin təklifi ilə Səudiyyə Ərəbistanının Məkkə və Mədinə şəhərlərinə səfər heyətinin tərkibinə Arif Məlikov da dəvət alır. Bu barədə yazıçı-jurnalist Flora Xəlilzadənin bəstəkarın öz dilindən qələmə aldığı xatirələrdən: "...Arif Məlikov danışır ki, mənim üçün təəccüblü və maraqlı fakt budur ki, ziyarət zamanı unudulmaz Heydər Əliyev mənə dedi: "Arif, bilirsən səni bura niyə gətirmişəm? İstəyirəm ki, sən buraları da görəsən və bunun təsiri altında bir simfonik əsər yazasan". Heydər Əliyevin bu sözləri bəstəkarı heyrətə gətirib. Heydər Əliyevin qüdrətli duyumu, dərin hissiyyatı qarşısında heyrətini gizlədə bilməyən Arif Məlikov deyir: "İnanmıram ki, adi adam Məkkədə simfonik musiqi haqqında fikirləşə bilsin. Simfonik əsər yazan mənəmsə, orada mən belə şeylər fikirləşmirdim. Çünki Məkkə, Mədinə hara, Quran hara, simfonik əsər hara?! Bunlar bir-birinə uyuşmayan, üst-üstə düşməyən, tamamilə əks məsələlərdir. Amma böyük şəxsiyyət hiss edirdi ki, məhz orada nəyisə mənimsəyib dəyərli simfonik əsər yazmaq mümkündür...".



Bu tarixi səfərdən alınan təəssüratın nəticəsində bəstəkarın VIII simfoniyası meydana gəlir. Müəllif möhtəşəm partituranı Heydər Əliyevə həsr edərək, əsəri "Əbədiyyət" adlandırır.

## Milli musiqi tariximizdə ilk

Arif Məlikovun vətəninə bağlı hərtərəfli məhsuldar yaradıcılığı dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilib. 2009-cu ildə isə Arif Məlikov Heydər Əliyev Mükafatına layiq görülür. Mükafatın təqdimetmə mərasimində bunu yüksək dəyərləndirən sənətkar fərəhlə söyləmişdi: "Azərbaycan Prezidentinə, onun xanımına öz dərin təşəkkürümü bildirir və bu gün xatirəsini böyük ehtiramla yad etdiyimiz dahi şəxsiyyətin qarşısında baş əyirəm və onun surəti həkk olunan bu nişanı həmişə fərəhli günlərdə fəxrlə döşümdə aparacağam".

Onun zəngin irsinə yüksək diqqətə daha bir parlaq misal kimi Prezident İlham Əliyevin 2013-cü ildə imzaladığı sərəncamla Arif Məlikovun iyirmi yeddi kitabdan ibarət külliyyatının nəşrini göstərmək olar. Bu layihənin koordinatoru bəstəkarın özü, musiqi redaktoru Arif müəllimim tələbəsi, Əməkdar incəsənət xadimi, professor Ceyhun Allahverdiyev, kompüter not qrafikasına məsul isə bu sətirlərin müəllifi idi. İş olduqca maraqlı tərzdə həyata keçirdi. Yazılmayan qanuna görə böyük bəstəkarların yaradıcılığından ibarət külliyyatlar onların haqq dünyasına qovuşmasından sonra nəşr olunur. Amma Arif müəllimin timsalında milli musiqi tarixində ilk dəfə canlı müəllifin əsərləri müasir dizaynla, üç (Azərbaycan, rus və ingilis) dildə təqdim olundu. Həmin dövrdə onunla sıx təmasda olaraq maraqlı söhbətlərini eşitməklə yanaşı, özüm üçün bir çox şəxsi müsbət keyfiyyətlərini də kəşf etdim. Dünyaca məşhur bəstəkarla ünsiyyətdə olduqca sadə idi. Xüsusilə, əgər qarşı tərəfin hansısa istedadı onun diqqəti cəlb etsəydi onunla mütləq maraqlanardı.

Bir dəfə Arif müəllim, Ceyhun müəllim və mən "Şuşa" restoranında şam yeməyinə yığışmışdıq. Görüşümüz yay fəslinə təsadüf etdiyindən açıq havada əyləşmişdik. Qələbəlik idi. Əyləşdiyimiz masa səhnədən bir qədər aralı olduğundan kimlərin çıxış etdiyini görmürdük. Bir qədər sonra qarmonda gözəl bir ifa səsləndi. İfaçı muğam üzərində gəzişmədən Arif müəllimin "Güllərim" mahnısına instrumental keçid elədi. Bu jest mahnı müəllifinə ünvanlanan bir sayğı əlaməti idi. Arif müəllim ifaçını yaxından görmək üçün səhnəyə doğru getdi. Bir qədər sonra geri qayıdaraq musiqiçinin cavan, amma olduqca istedadlı bir oğlan olduğunu bildirdi. Onu bizim süfrəyə dəvət etdi, söhbət edərək, dəyərli tövsiyələr verdi.

## Son söz əvəzi

Təbii ki, bir məqalə çərçivəsində Arif Məlikov şəxsiyyətinin bütün çalarlarını açmaq mümkün deyil. Amma onun çoxcəhətli fəaliyyətini ümumiləşdirmək mümkün olarsa, belə deyərdim: "yaşayaraq yanmaq sevgisi". Şair Bəxtiyar Vahabzadənin "Ömür" şeirindən aşağıdakı misralarda deyildiyi kimi:

*...Yaşamaq, yanmaqdır,*
*yanasan gərək,*
*Həyatın mənası yalnız ondadır.*
*Şam əgər yanmasa,*
*yaşamır demək,*
*Onun da həyatı yanmağındadır...*

Arif müəllimdə belə bir xüsusiyyət də vardı. Hər dəfə müəyyən işi bitirib nəticəsini görəndən sonra deyərdi: "Dünən olanı qapayaraq yeni səhifəyə başlayırıq".

Bu fikir Arif müəllimin yaradıcı həyatının həmişə əsas stimulundan biri idi. Böyük bəstəkar, görkəmli pedaqoq, araşdırıcı-publisist, istedadlı rəssam və cəmiyyətin ictimai həyatında fəal iştirakçı şəxsiyyət. Adıçəkilən sahələrin hər birində böyük sənətkar lazımsız pafosdan uzaq olaraq doğma Vətəninə bacardıqca xeyir verməyə çalışırdı. Burada Arif müəllimin şəxsiyyətində daha iki əsas keyfiyyət – ilk olaraq məqsədyönlülük, ikinci isə, qibtəediləcək zəhmətsevərlik qeyd olunmalıdır. Həmin fərdi xüsusiyyətlər təbii fitri istedadla birlikdə onun yaradıcı həyatı boyu ayrılmaz yolçuları oldular.

Sentyabrın 13-də Arif Məlikovun 90 yaşı tamam olur. 18-19 sentyabrda isə Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə bəstəkarın "Məhəbbət əfsanəsi" baleti 60 ildən sonra yenidən Bakı səhnəsində musiqisevərlərin ixtiyarına veriləcək. Təəssüf ki, bütün bu təntənələr Arif Məlikovsuz keçəcək. Amma inanırıq ki, onun ruhu şaddır. Çünki böyük sənətkarın zəngin irsi konsert və teatr səhnələrində daima səslənmək və Azərbaycanın musiqi mədəniyyətini həmişə yüksək səviyyədə təqdim etmək gücünə malikdir.

Əbədiyyətdə ilk yubileyiniz mübarək, Arif müəllim!

**Yavər Neymətli**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Opera və Balet Teatrı mövsümü "Arşın mal alan"la açacaq

Sentyabrın 25-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı Bakı Musiqi Akademiyasının (BMA) Opera studiyasında Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını təqdim edəcək.




Operetta Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində nümayiş olunacaq.

Quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev olan səhnə əsərində rolları Ataş Qarayev (Əsgər), Fatimə Cəfərzadə (Gülçöhrə), Xalq artisti Gülyaz Məmmədova (Telli), Əməkdar artistlər Cahangir Qurbanov (Soltan bəy), Gülüstan Əliyeva (Cahan xala), Səbinə Vahabzadə (Asiya), Taleh Yahyayev (Süleyman), Sadiq Məlikov (Vəli) ifa edəcəklər.

Səhnə əsəri Əməkdar incəsənət xadimi Sevil Hacıyeva tərəfindən idarə olunacaq.

# Sənətşünas, rəssam, pedaqoq...

Sənətşünaslıq elmimizin inkişafına dəyərli töhfələr verən alimlərimizdən biri də Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, professor Mürsəl Nəcəfov olub. Görkəmli alimi anadan olmasının 105-ci ildönümü münasibətilə yada salırıq.



Mürsəl Nəcəfqulu oğlu Nəcəfov 20 sentyabr 1918-ci ildə Bakının Novxanı kəndində dünyaya göz açıb. Orta məktəbi başa vurduqdan sonra Əzim Əzimzadə adına Bakı Rəssamlıq Texnikumuna qəbul olunur. Təhsilini fərqlənmə diplomu ilə başa vurur. 1936-cı ildə əmək fəaliyyətinə başlayır. Bir müddət sonra respublika Nazirlər Sovetində Təsviri sənət bölməsinə rəhbərlik edir. İki il burada çalışdıqdan sonra məzunu olduğu Rəssamlıq Texnikumuna direktor təyin edilir. Eyni zamanda Rəssamlar İttifaqının məsul katibi seçilir.

Bir çox həmyaşıdları kimi Mürsəl Nəcəfovun da yolu qanlı müharibədən keçir. II Dünya müharibəsi başlayanda könüllü olaraq ordu sıralarına yazılır, faşist qüvvələrinə qarşı döyüşür. Müharibə başa çatdıqdan sonra Vətənə "Qırmızı ulduz" ordeni və müxtəlif medallarla qayıdır.



1946-cı ildə gözləmədiyi halda Azərbaycan Rəssamlar İttifaqına sədr seçilir. İşinin çoxluğuna baxmayaraq ali təhsil almaq planından vaz keçmir. İ.Repin adına Leninqrad (indiki Sankt-Peterburq) Rəssamlıq İnstitutunun Nəzəriyyə və incəsənət fakültəsini bitirir.

Dövlət İncəsənət Muzeyində şöbə müdiri işlədiyi vaxtlarda sənətşünaslıq üzrə araşdırmalara başlayır. "Azərbaycanda satirik qrafikanın inkişafı" mövzusunda elmlər namizədi (1962), "Əzim Əzimzadə və Azərbaycan incəsənətində onun mövqeyi" mövzusunda doktorluq dissertasiyalarını (1969) müdafiə edir. 1972-ci ildə Azərbaycan Memarlıq və İncəsənət İnstitutunun (indiki AzMİU) Təsviri sənət kafedrasının müdiri seçilir və ömrünün sonunadək həmin vəzifədə çalışır.

Araşdırmalarda qeyd edilir ki, Mürsəl Nəcəfov istedadlı sənətşünas kimi təsviri sənətə ülvi tellərlə bağlanıb. Bu sahəyə dair monoqrafiya və kitabları Bakıda və Moskvada çap edilib.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, sənətşünas-alim K.Kərimov görkəmli alimdən bəhs edərkən yazıb: "Mürsəl Nəcəfovun rəssamlıq fəaliyyətini qeyd etməmək olmaz. O, bir sıra etüd və mənzərə işləmişdir ki, bunların bəziləri respublika sərgilərində nümayiş etdirilib. Onun gözəl



rəssamlıq qabiliyyəti var. Səyahət etdiyi xarici ölkələrə aid rəsmlərindən bir neçəsi onun "Əsrlərdən xatirə" kitabında dərc edilib".

Mürsəl Nəcəfov Azərbaycan Televiziyası ilə geniş əməkdaşlıq edib. Televiziya üçün 250-dən artıq verilişin ssenarisini yazıb. 1970-ci ildən məhz onun təşəbbüsü ilə ekrana çıxan "Palitra" dövrün ən baxımlı verilişlərindən biri kimi maraqla qarşılanıb. Sənətşünas-alim eyni zamanda "Azərbaycan Sovet Ensiklopediyası" üçün 67 məqalə yazıb. Gərgin əməyi, elmi axtarışları yüksək qiymətləndirilən Mürsəl Nəcəfov respublikamızın "Əməkdar incəsənət xadimi" fəxri adına və Dövlət mükafatına layiq görülüb.

Alimin Bəhruz Kəngərli, Əzim Əzimzadə, Böyükağa Mirzəzadə, Tahir Salahov, Vəcihə Səmədova, Oqtay Sadıqzadə və digər görkəmli rəssamların həyat və yaradıcılıqlarından bəhs edən kitabları işıq üzü görüb. Müəllifin "Rəssam və zaman" toplusu isə sənətsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

Xalq rəssamı, SSRİ Dövlət mükafatı laureatı Kazım Kazımzadə "Rəssam və zaman" bədii-publisistik toplusuna ön sözdə yazır: "Gənc nəslin estetik tərbiyəsinin, dünyagörüşünün formalaşmasında incəsənətin mahiyyətini yüksək qiymətləndirən sənətşünas, gənclərin maraqla qarşıladığı, həvəslə oxuduğu elmi-kütləvi kitablar yazır, televiziyada, radioda, məktəblərdə, kitabxanalarda səmimi çıxışlar edirdi. Müəllifin "Əsrlərdən xatirə" və "Gözəllik aləminə səyahət" kitabları kimi "Rəssam və zaman" da yeniyetmələri, gəncləri dünya incəsənətinin ən kamil inciləri ilə tanış edir. Şübhə yoxdur ki, sadə, anlaşıqlı dildə yazılmış bu məqalə və oçerklər toplusu gələcək nəsillərin də dünyagörüşlərinə müsbət təsirini göstərəcək".

Milli sənətşünaslıq məktəbimizin formalaşması və inkişafında böyük səylər göstərən və elmi-publisistik yazıları ilə gənc rəssamları yaradıcılığa ruhlandıran professor Mürsəl Nəcəfov 1997-ci ildə, 79 yaşında vəfat edib.

**Savalan Fərəcov**

# Dilimiz haqqında düşünərkən...

## Azərbaycan Dili və Ədəbiyyatı Forumundan sonra

Məlum olduğu kimi, 1-3 sentyabr tarixlərində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Azərbaycan Dili və Ədəbiyyatı Forumu keçirildi. Belə bir forumun keçirilməsi labüd idi. Bu labüdlüyü doğuran müsbət cəhətlər də var, üzərində ciddi düşünülməli məqamlar da var.




### Öyrənilməli olan 14 dildən biri

Əvvəlcə müsbət cəhətləri qeyd edək. Bunlardan biri öyrənilməsi zəruri sayılan 14 dil sırasında dilimizin də yer almasıdır. Bu nailiyyətə gətirən yolda isə bir çox işıqlı cığırlar var. Forumda da qeyd olunduğu kimi, Azərbaycan dilinin tarixin mürəkkəb dövrlərinin sınaqlarından çıxmasında ədiblərimizin müstəsna xidməti var. Bu nə deməkdir? Bu o deməkdir ki, Azərbaycan dili qət etdiyi inkişaf yolunda dialektlərdən silkinib çıxıb, ədəbi dil səviyyəsində formalaşıb. Yetər ki, bunun fərqinə varasan. Onda sahiblik və qorumaq hissi özünü ən yüksək səviyyədə büruzə verəcək. Məsələn, dilimizin məhz Azərbaycan dili kimi, bu adla özünütəsdiqi kimi.

Ulu öndər Heydər Əliyevin sözlərini yada salaq: "...Bəli, biz türkdilli xalqlardan biriyik və türk mənşəli xalqıq. Kökümüz birdir. Amma digər hər bir türkdilli xalqın dili o xalqın adı ilə adlanır. Biz də azərbaycanlıyıq. Dilimiz də Azərbaycan dilidir".

### Nizamlı və bütöv dil

Azərbaycan dili, Azərbaycan nitqi yazılış və səslənmə qaydalarına görə kübar dildir. Bu dildə hər hansı fikri nitqlə və ya qələmlə ifadə edərkən dilin nizamlı və bütöv dillərdən biri kimi kifayət qədər nadir keyfiyyətə malik olmasını nəzərdən qaçırmaq, yumşaq desək, diqqətsizlikdir. Son illərə qədər ən böyük diqqətsizlik dialekt və şivələrin Azərbaycan dilinin yazılı və şifahi kütləvi informasiya vasitələrində qol-qanad açması idi. Halbuki hələ illər öncə dünya alimləri dillərin dialektlərdən təmizlənməsinə xüsusi diqqət ayırıblar. Bizdə isə əksinə, Azərbaycan dilinin dialektlərlə zənginliyi ön plana, ədəbi dilin mükəmməlliyi arxa plana keçdi, media Azərbaycanın bütün bölgələrinin loru, məişət danışığının, yazılışının palitrasına çevrildi. Əslində isə ali təhsilli adam, ümumiyyətlə, dialektlə nəinki yazmamalı, heç danışmamalıdır. Eynilə "indən belə", "görsənir", "görükür" kimi ifadələrin də ədəbi dilə heç bir aidiyyəti yoxdur. Televiziya və radio verilişlərində Azərbaycan dili hər kəs tərəfindən "təfsir" edilir. Hətta bu yaxınlarda bir radioaparıcı belə bir mülahizə irəli sürdü ki, "səbirli olmaq" hər hansı dözülməzliyə dözmək anlamındadır. Radio ilə televiziyanın auditoriyası daha genişdir. Bu mülahizəni qulağı çalan bir yeniyetmə və ya gənc çaşbaş vəziyyətə düşməzmi? Səbirli olmağın son dərəcə geniş məna arealı var. Məsələn, insan səbirli olmasa, hər hansı işi normal şəkildə başa çatdıra bilərmi? Təbii ki, yox. Efir vaxtını məntiqsiz-məzmunsuz əllaməliklə doldurmağa laqeyd qalsaq, belə "aparıcılar" baş alıb gedəcəklər.

### Tədris və elmi ədəbiyyat

Azərbaycan dili və ədəbiyyatına layiqli münasibət onun tədrisindən başlayır. Bu məsələyə yanaşma da birmənalı deyil. Məsələn, biz rus bölməsində tədrisin daha keyfiyyətli fikrinin mif olduğunu və ali məktəblərə qəbul zamanı Azərbaycan bölmələrinin məzunlarının daha yüksək nəticələr göstərdiklərini faktlara əsaslanıb deyə bilərik. Amma Azərbaycan dilinin tədrisi, bu sahədə dərsliklərin vəziyyəti ilə bağlı problemləri də dana bilmərik. Dərsliklər məktəblilərə siqnal nüsxələri kökündə çatdırılır; bir tərəfdən qrammatik səhvlər, digər tərəfdən məzmununun bəsitliyi. Bəsit məzmun və üçüncü sinifdən tədris edilən (?) leksika, morfologiya...

Dərslik demişkən, dərsliklərin səhvlərlə dolu olması Azərbaycan dilinin elmi "qolunun" zəif olmasından irəli gəlir. Bu məsələ son otuz ilin ən ümdə problemlərindəndir – Azərbaycan dilində yazılmış və ya dilimizə tərcümə edilmiş səviyyəli, savadlı humanitar və dəqiq elmlərə aid elmi ədəbiyyat tapmaq müşküldür. Aydınlaşdırmaq lazımdır ki, niyə elmi və xüsusən də texniki ədəbiyyatın Azərbaycan müəllifləri tərəfindən tərtibi və ya tərcüməsi bu dərəcədə yarıtmaz vəziyyətdədir. Unutmayaq ki, dilin mükəmməlliyini, müqtədirliyini, yaşarılığını bədii dildən sonra onun elmi dili təmin edir.

### Teatr və kinomuzun dili

Teatr vizual və söz sənətinin sintezində mükəmməl səviyyə qazana bilir. Bəli, söz tələb olunmayan teatr növləri də var – balet, pantomim. Amma uzunmüddətli müşahidə göstərir ki, üz və bədən dilində ifadə edəcəyi süjetin söz məzmununu tam duyub dərk etməyən aktyor o süjetin balet və ya pantomim tamaşası şəklində ifasında da sənət əsəri yarada bilmir. Ən əcaibi odur ki, Azərbaycan dialekt və şivələri dünya ədəbiyyatı nümunəsinin tamaşalarında da eşidilir. Belə əcaibliyin yanında kəlmələri, ifadə və cümlələri yazıldığı kimi deklamasiya edilməsi az qala qənaətbəxş görünməyə başlayır. Yeri gəlmişkən, dilimizdəki sözlərin deyildiyi kimi yazılması təklifləri birmənalı şəkildə qəbul edilə bilməz.

Kino bütünlüklə olmasa da, xeyli dərəcədə vizual, illüziya sənətidir. Ədəbiyyatımızla kinomuz arasında son illər yaranmış məsafəli münasibətin mənfi təsirini bir daha vurğulamağa ehtiyac yoxdur. Yaxşı film yaxşı ssenari deməkdir. Ədiblərimizin dəyərli əsərləri kino dilinə uyarlı şəkildə təbdil olunmadıqca, ssenariçi (-ist sonluğunun dilimizə yad olduğunu qəbul etmək vaxtıdır) bacarıqları aşılanmadıqca inkişaf etmiş Azərbaycan kinosundan danışa bilməyəcəyik. Baxın, kinomuzun ən böyük çatışmazlığı nədir? Xarakter. Hər hansı insan xarakteri kağız üzərində bitkin yaradılmayıbsa, ekranda rejissorun təqdim etdiyi personaja qətiyyən uyğun olmayan davranış görəcəyik. Necə ki, görürük. Bu halda kino sənətindən necə danışmaq olar?

### Yekun olaraq...

Ən melodik, ən bitkin dillərdən biri olan Azərbaycan dilinin korlanacağından çox narahat olmaq və heç narahat olmamaq düzgün mövqe deyil – qədərində olmalıdır hər iki emosiya. Tərcümə məsələsi burda da böyük önəm kəsb edir. Dilin daha da rəvan olmasını şərtləndirən məqamlardan biri məhz tərcümədir. Humanitar və dəqiq elmlərə aid bədii və elmi ədəbiyyatın tərcüməsinə daha böyük diqqət ayrılmalıdır. Tərcüməçilər daha diqqətlə seçilməli, zəhmətləri daha yaxşı qiymətləndirilməlidir ki, müxtəlif sahələr üzrə ixtisaslaşmış tərcüməçilər yetişsin. Belə yanaşma humanitar sahəyə söz yaradıcılığı, texniki sahəyə isə dəqiqlik kimi xeyirli vərdişlər qazandırar...

**Samirə Behbudqızı**

## Xatirə təqvimi — 13–15 sentyabr

### Azərbaycan

**13 sentyabr 1893** – Əməkdar artist, opera müğənnisi Əli Əbdül oğlu Zülalov (1893-1963) Şuşada anadan olub.

**13 sentyabr 1933** – Görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik, Dövlət mükafatı laureatı Arif Cahangir oğlu Məlikov (1933 – 9.5.2019) Bakıda doğulub. "Məhəbbət əfsanəsi" baleti, "Dalğalar" operettası, "Füzuli", "Vətən", "Metamorfozlar" simfonik poemaları, 8 simfoniya və s. əsərlərin müəllifidir. Filmlərə ("Sehrli xalat", "Axırıncı aşırım"), tamaşalara musiqi yazıb. Bakı Musiqi Akademiyasının professoru olub.

**13 sentyabr 1969** – Xalq rəssamı İsmayıl Hüseyn oğlu Axundov (15.4.1907 – 1969) vəfat edib. Azərbaycan Rəssamlar İttifaqının ilk sədri olub.

**14 sentyabr 1880** – Yazıçı İbrahim Mehdi bəy oğlu Musabəyov (1880-1942) Qəbələdə anadan olub. Yazıçının "Neft və milyonlar səltənətində" povesti əsasında 1916-cı ildə Azərbaycanın ilk tammetrajlı bədii filmi çəkilib. Qazaxıstanın Karaqanda şəhərində sürgündə vəfat edib.

**14 sentyabr 1911** – Şair, dramaturq, ədəbiyyatşünas Müzəffər Qasım oğlu Nəsirli (1911-1980) Naxçıvan MR Şahbuz rayonunun Sələsüz kəndində anadan olub.

**14 sentyabr 1939** – Yazıçı-dramaturq Aslan Qəhrəman oğlu Qəhrəmanlı (1939 – 19.1.2014) Ağstafa rayonunun Yenigün kəndində doğulub. Televiziyada ekranlaşdırılmış "Səni axtarıram", "Bağışla" və "Səndən xəbərsiz" pyeslərinin, povest və hekayələrin müəllifidir.

**14 sentyabr 1939** – Əməkdar artist, vokal ifaçısı İsmayıl Sadıq oğlu Ələkbərov (1939-2021) Bakıda doğulub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının muğam bölməsinin solisti olub.

**14 sentyabr 1941** – Əməkdar incəsənət xadimi, kinorejissor Teymur Bəkir oğlu Bəkirzadə (1941 – 21.9.1996) Bakıda doğulub. "Azərbaycanfilm" kinostudiyasında sənədli və bədii filmlərə ("Rəqiblər", "Yol əhvalatı") quruluş verib.

**14 sentyabr 1949** – Əməkdar artist Sona Qədir qızı Mirzəyeva (1949-1985) Bakıda doğulub. İrəvan Dövlət Azərbaycan, Naxçıvan teatrlarının aktrisası olub.

**14 sentyabr 1973** – Bakıda Azərbaycanın böyük mütəfəkkir şairi İmadəddin Nəsiminin (1369-1417) anadan olmasının 600 illiyinə həsr edilmiş təntənəli mərasim keçirilib. Yubileyə dünyanın 30-dək ölkəsindən qonaqlar qatılıb. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə çıxış edib.

**14 sentyabr 1989** – Azərbaycan Nazirlər Sovetinin müvafiq qərarı ilə Naxçıvan Dövlət Kukla Teatrı yaradılıb. 2004-cü ildən Məhəmməd Tağı Sidqinin adını daşıyır.

**14 sentyabr 1992** – Xalq şairi Hüseyn Arif (Hüseynzadə Hüseyn Camal oğlu; 15.6.1924 – 1992) vəfat edib. Azərbaycan Aşıqlar Birliyinin sədri olub.

**14 sentyabr 1992** – Əməkdar artist, vokal ifaçısı (bariton) Əli Həsən oğlu Haqverdiyev (29.7.1939 –1992) vəfat edib. Azərbaycan Opera və Balet Teatrının solisti olub, filmlərdə çəkilib.

**14 sentyabr 2017** – Əməkdar incəsənət xadimi, ustad saz ifaçısı, aşıq Ədalət Məmmədəli oğlu Nəsibov (27.1.1939 – 2017) vəfat edib.

**14 sentyabr 2021** – Əməkdar artist, tanınmış müğənni, bəstəkar Yaqub Zurufçu (8.4.1956 – 2021) vəfat edib.

**15 sentyabr 1905** – Azərbaycanda kukla teatrının yaradıcısı, aktyor, rejissor Molla Ağa Bəbirli (1905 – 22.10.1970) Bakıda anadan olub. "O olmasın, bu olsun", "Bir məhəllədən iki nəfər", "Sehrli xalat" filmlərində çəkilib, Akademik Dram Teatrında çıxış edib.

**15 sentyabr 1918** – Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı – "Azərbaycan" qəzetinin ilk sayı çapdan çıxıb.

**15 sentyabr 2006** – Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Zülfüqar oğlu Adıgözəlov (28.7.1935 – 2006) vəfat edib. Azərbaycan Bəstəkarlar İttifaqının sədri olub.

**15 sentyabr 2007** – Xalq rəssamı Elbəy Mirzə Həsən oğlu Rzaquliyev (17.6.1926 – 2007) vəfat edib. "Telefonçu qız", "Arşın mal alan" (1965), "Gün keçdi", "Arxadan vurulan zərbə" və s. filmlərin rəssamı olub.

**15 sentyabr 2021** – Əməkdar artist, tanınmış arfa ifaçısı Çiçək Məmmədhüseyn qızı Rzayeva (13.6.1944 – 2021) vəfat edib.

**15 sentyabr 2021** – Ukraynanın ikinci böyük şəhəri olan Xarkovda Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılış mərasimi keçirilib. Abidənin müəllifi həmvətənimiz, Ukraynanın Xalq rəssamı, heykəltəraş Katib Məmmədovdur.

**15 sentyabr 2022** – Əməkdar mədəniyyət işçisi, musiqi təşkilatçısı İldırım Əli-Nazir oğlu Qasımov (7.12.1933 – 2022) vəfat edib.

**15 sentyabr 2022** – Əməkdar elm xadimi, nizamişünas, tərcüməçi, mətnşünas, filologiya üzrə elmlər doktoru Xəlil Həmid oğlu Yusifli (17.7.1935 – 2022) vəfat edib.

### Dünya

**13 sentyabr 1874** – Avstriya bəstəkarı Arnold Şönberq (Arnold Franz Walter Schoenberg; 1874-1951) anadan olub. Musiqidə ekspressionizmin nümayəndəsi, "Moisey və Aaron" operası, "İntizar" monodramı və s. əsərlərin müəllifidir.

**13 sentyabr 1894** – İngilis yazıçısı və dramaturqu Con Boynton Pristli (John Boynton Priestley; 1894-1984) anadan olub. Əsərləri: "Mehriban dostlar", "Mələk küçəsi", "Cənnət guşəsi" (pyeslər), "Qretlidə qaranlıq" (roman) və s.

**13 sentyabr 1905** – Fransız əsilli Amerika aktrisası, "Oskar" laureatı Klodet Kolber (Claudette Colbert – Lily Claudette Chauchoin; 1905-1996) anadan olub.

**13 sentyabr 1924** – Fransa bəstəkarı Moris Jarr (Maurice Jarre; 1924-2009) anadan olub. 100-dən çox filmə musiqi yazıb, 3 dəfə "Oskar" mükafatına layiq görülüb.

**14 sentyabr 1321** – İtalyan şairi Dante Aligyeri (Dante Alighieri; 15.5.1265 – 1321) vəfat edib. İntibah ədəbiyyatının şah əsərlərindən olan "İlahi komediya" poemasının müəllifidir. Axirət dünyasına səyahəti təsvir edən poema üç hissədən ("Cəhənnəm", "Əraf", "Cənnət") ibarətdir.

**14 sentyabr 1618** – Holland əsilli ingilis rəssamı Piter Leli (Peter Lely - Pieter van der Faes; 1618-1680) anadan olub.

**14 sentyabr 1898** – Rus aktyoru, SSRİ Xalq artisti Mark Prudkin (1898-1994) anadan olub. Filmləri: "Karamazov qardaşları", "On iki stul" (1976) və s.

**15 sentyabr 1789** – Amerika yazıçısı Ceyms Fenimor Kuper (James Fenimore Cooper; 1789 – 14.9.1851) anadan olub. Tarixi və macəra romanlarının müəllifidir: "Casus", "Dəniz qulduru", "Losman", "Sonuncu mogikan", "Ləpirçi" və s.

**15 sentyabr 1890** – İngilis yazıçısı, detektiv əsərlərin müəllifi Aqata Kristi (Agatha Mary Clarissa; 1890 – 12.1.1976) anadan olub. Əsərləri: "Rocer Ekroydun qətli", "Yarımçıq portret", "Şərq ekspressində qətl", "Nildə ölüm" və s.

**15 sentyabr 1894** – Fransız kinorejissoru, "Oskar" laureatı Jan Renaur (1894–1979) anadan olub. Filmləri: "Böyük illüziya", "Marselyoza", "Fransız kankanı" və s.

**15 sentyabr 1914** – Türk yazıçısı Orxan Kamal (Mehmet Raşit Öğütçü; 1914 – 2.6.1970) Adananın Ceyhan qəsəbəsində doğulub. "Baba evi", "Cəmilə", "Yad qızı", "Qürbət quşları" kimi romanları, "Çörək davası", "Arxa küçə" və s. hekayələri yazıçıya geniş oxucu rəğbəti qazandırıb.

**15 sentyabr 1925** – Rus aktyoru, SSRİ Xalq artisti Kirill Lavrov (1925-2007) anadan olub. Filmləri: "Dirilər və ölülər", "Karamazov qardaşları", "Odun ram edilməsi" və s.

**Hazırladı: V.Orxan**

# 6-cı "Animafilm" festivalı başa çatıb

## Qran-prini çinli rejissor qazanıb...

əvvəli səh. 1-də

Festivalın beynəlxalq müsabiqəsinin "Ən yaxşı qısametrajlı animasiya filmi" – Qran-pri mükafatına çinli rejissor Lei Chenin "Müharibənin sonu" (The End of War) filmi layiq görülüb.

Festivalın yerli müsabiqəsinin "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" kateqoriyası üzrə qalibinin adını Mədəniyyət Nazirliyinin müşaviri Orxan Fikrətoğlu açıqlayıb. Mükafata rejissor Aleksandra Şirinovanın "Baharın oğurlanması" (Stolen Spring) filmi



layiq görülüb. Bu kateqoriya üzrə digər qalibin adı isə Fransanın Azərbaycandakı səfiri Ann Buayon tərəfindən açıqlanıb. Mükafatı rejissor Rəvan Muradovun "Birdən ölsək" (The Half – If We Die) filmi qazanıb. Səfir bildirib ki, bu mükafatın qalibi ənənəvi olaraq Fransada dünyanın ən böyük animasiya layihəsi festivalı olan "Annecy" Beynəlxalq Animasiya Film Festivalına qatılmaq imkanı qazanıb.

Beynəlxalq müsabiqənin "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi" kateqoriyası üzrə honqkonqlu rejissorlar Step Cheung və Kai Chung Ngin "Hər bir yerdə" (Everywhere) filmi qalib adını qazanıb.

"Ən yaxşı Azərbaycan tələbə qısametrajlı animasiya filmi" kateqoriyası üzrə rejissor Ayan Novruzlunun "Boş yerlər" (Empty Spaces) filmi qalib gəlib. Bu film həmçinin tamaşaçı seçimi müsabiqəsinin də qalibi olub.

İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin dəstəyi ilə həyata keçirilən "Animasiya filmləri vasitəsilə qadın haqları" adlı vörkşop və maliyyə proqramı layihəsi üzrə rejissor Mehriban Əliyevanın "Züleyxa Seyidməmmədova" filmi I, rejissor Leyla Novruzovanın "Üzük" (Ring) filmi isə II yerə layiq görülüb. Bilet satışlarından əldə olunan gəlir məhz bu proqramın qaliblərinə dəstək məqsədilə ianə ediləcək.

Tədbirdə "TOTD" ictimaiyyətlə əlaqələr təşkilatının builki festival haqqında çəkdikləri qısametrajlı film nümayiş olunub.

Sonda festivalın direktoru, Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev və kreativ direktor Nəzrin Ağamalıyeva çıxış edərək layihənin bütün dəstəkçilərinə və heyətinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, beş gün davam edən festivala Məsud Pənahi (Azərbaycan, Almaniya), Kireet Khurana (Hindistan), Matthew Lyon (Kanada) və Maykl Dudok de Vit (Niderland) kimi tanınmış rejissor və animatorlar qatılıb.

Festivalda ümumilikdə uşaqlar və böyüklər üçün çəkilmiş 64 animasiya filmi nümayiş etdirilib.

**Nurəddin Məmmədli**

# Kazandan kimlər əlidolu döndü?

"Biz – iştirakçılar, münsiflər, təşkilatçılar, qonaqlar bu festivalı keçirməklə müsəlman aləmi ilə Rusiya arasında münasibətlərin təməlinə daha bir iri kərpic qoymuş olduq".

Bu sözləri XIX Kazan Beynəlxalq Müsəlman Kinosu Festivalının bağlanış mərasimində Tatarıstan Respublikası Baş nazirinin müavini, festivalın təşkilat komitəsinin sədri Vasil Şeyxraziyev söyləyib.



Müsabiqə proqramına 20-dən çox ölkəni təmsil edən 52 filmin daxil olduğu festivalın mükafatçılar coğrafiyası da genişdir.

"Ən yaxşı tammetrajlı oyun filmi" üçün nəzərdə tutulan Qran-pri mükafatı və 1 milyon rubluq sertifikat İran rejissoru Behruz Şoaibinin "İlkin razılaşma olmadan" filminə verilib. "Bizim ev" (Ermənistan) filminin quruluşçu rejissoru Romi Meytei ən yaxşı rejissor hesab edilib. Tammetrajlı oyun filminin ən yaxşı aktyoru və aktrisası isə müvafiq olaraq Vaggelio Andreaki "Ləyaqət" (Yunanıstan) və Peqa Əxənqərani "İlkin razılaşma olmadan" (İran) qalib seçiliblər.

Yuliya Bobkovanın "Qaçqınlar" (Rusiya) filmi "Ən yaxşı tammetrajlı sənədli film", Salah Bufellin "Təbiətin qəlbi. Bakdi" (Əlcəzair) lenti "Ən yaxşı qısametrajlı sənədli film" mükafatlarına layiq görülüblər. Xusnora Rozmatovanın "Bədbəxt adaxlı" (Özbəkistan) filmi isə Tatarıstan rəhbərinin şəxsən təsis etdiyi "Kino sənətində humanizmə görə" mükafatını qazanıb.

XX Kazan Beynəlxalq Müsəlman Kinosu festivalı 2024-cü il sentyabrın 7-dən 11-dək keçiriləcək.

**Gülcahan**

# Mərakeşdə zəlzələ qurbanlarının sayı 3 minə çatır

Mərakeşdə sentyabrın 9-na keçən gecə baş verən 6,8 bal gücündə zəlzələ nəticəsində ölənlərin sayı 3 minə yaxınlaşır. Sentyabrın 12-nə olan məlumata görə, dağıntılar altından 2900-dək insanın cəsədi çıxarılıb. 2500-dən çox adam xəsarət alıb.



Xatırladaq ki, yeraltı təkanların episentri ölkə ilə eyni adı daşıyan Mərakeş şəhərindən təxminən 70 kilometr cənub-şərqdə, El Haouz əyalətində yerləşən İgil bölgəsində olub. Təbii fəlakət təkcə yaşayış binalarını deyil, mədəni-tarixi dəyərə malik tikililəri də dağıdıb və ya zədələyib. Ölkənin əsas mədəniyyət paytaxtı sayılan Mərakeş şəhərində qədim məhəllələr, XII əsrə aid Kutoubia məscidinin 69 metrlik minarəsi, XIX əsrdə tikilmiş, hazırda Mərakeş Milli Xalçaçılıq Muzeyinin yerləşdiyi Dar Si Səid sarayı ciddi ziyan görüb. Mərakeş Milli Muzeylər Fondunun prezidenti Mehdi Kotbinin sözlərinə görə, zəlzələ qədim evlərdə saxlanılan maddi irsin bir hissəsini məhv edib.

Fəlakətlə bağlı ölkədə üçgünlük matəm elan edilib. Axtarış-xilasetmə işlərinə ordu qüvvələri də səfərbər olunub.

# Yerdən 8,6 dəfə böyük

## Ekzoplanetdə həyat əlaməti aşkar edilib...

ABŞ-nin Milli Aeronavtika və Kosmos Administrasiyası – NASA "James Webb" kosmik teleskopu vasitəsilə Yer kürəsindən 8,6 dəfə böyük olan "K2-18 b" ekzoplanetində (Günəş sisteminin hüdudlarından kənarda olan planet) apardığı yeni araşdırma zamanı metan və karbon dioksid də daxil olmaqla, karbon daşıyan molekulların mövcudluğunu ortaya çıxarıb.

"James Webb" kosmik teleskopunun yeni kəşfi "K2-18 b" planetinin hidrogenlə zəngin atmosferə və su okeanı ilə örtülmüş səthə sahib olmaq potensialına malik olan "Hikean" ekzoplaneti ola biləcəyini göstərən son araşdırmaları təsdiq edir. Yaşayış üçün əlverişli zona olan bu ekzoplanetin atmosfer xüsusiyyətlərinə dair ilk fikir NASA-nın bundan öncəki "Hubble" kosmik teleskopu ilə aparılmış müşahidələr zamanı ortaya çıxıb. "K2-18 b" Yerdən 120 işıq ili uzaqlıqda, Şir bürcündə yerləşir və "K2-18" ulduzu ətrafında dövr edir.

# "Qızıl şir" "Zavallılar"a qismət oldu

## 80-ci Venesiya kinofestivalının mükafatları təqdim edilib...







Dünyanın ən qocaman kinofestivalı (əsası 1932-ci ildə qoyulub) sayılan Venesiya Beynəlxalq Film Festivalı bu il 80-ci dəfə gerçəkləşdi. 30 avqust – 9 sentyabr tarixlərində Venesiya şəhəri yaxınlığındakı Lido adasında keçirilən festivalın əsas müsabiqə proqramında 23 film "Qızıl şir" uğrunda yarışırdı.

Festivalın son günü Fransa-Amerika kinorejissoru Damien Şazelin (Damien Chazelle) rəhbərliyi ilə münsiflər heyəti mükafatçıları elan edib.

Festivalın baş mükafatı yunan rejissor Yorqos Lantimosun "Zavallılar" (Poor Things) filminə verilib. Ekran əsəri ABŞ-Britaniya-İrlandiyanın birgə istehsalı kimi təqdim olunub. Hollivud ulduzlarından Emma Stounun da rol aldığı film xəstə ananı xilas etmək üçün ona yenicə doğduğu uşağının beynini köçürmək istəyən alim haqqındadır.

"Gümüş şir" mükafatını italyan kinorejissoru və ssenaristi Matteo Qarrone (Garrone) "Mən kapitanam" filminə görə qazanıb. İtaliya-Belçika istehsalı olan film Aralıq dənizi ilə Avropaya miqrasiya yolundan bəhs edir.

Venesiya festivalının üçüncü dərəcəli mükafatı sayılan "Jüri Qran-prisi" isə yaponiyalı rejissor Ryusuke Hamaqutinin "Şər mövcud deyil" filminə verilib.

Rejissor Sofiya Koppolanın rok-n-roll kralı Elvis Preslinin həyat yoldaşı haqqında ekranlaşdırdığı "Priszilla" (Priscilla) filmində baş rolu oynamış Keyli Speni (Cailee Spaeny) ən yaxşı aktrisa, Mişel Frankonun "Yaddaş" filmində çəkilən Piter Sarsqaard (Peter Sarsgaard) isə ən yaxşı aktyor kimi mükafat qazanıblar.

Xatırladaq ki, festivalın ənənəvi fəxri mükafatçıları daha öncə elan olunmuşdu. Kinematoqrafiyaya böyük töhfələrinə görə bu il fəxri "Qızıl şir"ə 90 illiyini qeyd edən italyan xanım rejissor Liliana Kavani (Cavani) və honkonqlu aktyor Toni Lyun Çu Vay (Tony Leung Chiu Wai) layiq görülüblər.

**V.Kamal**




Olaylar, faktlar
(12–14 sentyabr)

### 300 il əvvəl...

**12 sentyabr 1723-cü ildə** çar Rusiyası ilə Səfəvi dövləti arasında Peterburq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Azərbaycanın Xəzəryanı əraziləri (Dərbənddən Ənzəliyədək) Rusiyanın nəzarətinə verilib. Həmin dövrdə Osmanlı ilə müharibə aparan Səfəvi dövləti üçün bu saziş taktiki səciyyə daşıyırdı. Lakin Rusiya ona umduğu dəstəyi vermədi, əksinə, 1724-cü ildə Osmanlı ilə də müqavilə bağladı. Səfəvi dövləti Rusiyanın nəzarətinə verdiyi torpaqları 1732-1735-ci illərdə geri qaytara bildi.

### 222 il əvvəl...

**12 sentyabr 1801-ci ildə** çar I Aleksandr Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest imzalayıb. Manifestə əsasən, Azərbaycanın tarixi torpaqları olan Şəmşəddil, Borçalı əraziləri də Rusiya tərkibinə qatıldı.

### 197 il əvvəl...

**13 sentyabr 1826-cı ildə** İkinci Rusiya-İran müharibəsinin (1826-1828) gedişinə əhəmiyyətli təsir edən Gəncə döyüşü olub. İran qoşunlarının ağır məğlubiyyətə uğraması müharibənin taleyini faktiki olaraq həll edib. Bundan əvvəl (3 sentyabr) şahzadə Abbas Mirzənin qoşunları Şəmkir döyüşündə də ruslara məğlub olmuşdu. Ardınca Rusiya qoşunlarının Naxçıvan və İrəvan xanlıqları üzərinə hücumları başlandı.

### 103 il əvvəl...



**14 sentyabr 1920-ci ildə** Cənubi Azərbaycan Milli Hökumətinin qurucusu Şeyx Məhəmməd Xiyabani Təbrizdə qətlə yetirilib. Xiyabaninin başçılığı ilə Təbriz üsyanı həmin ilin aprelində qələbə çalmış, iyunda Milli Hökumət qurulmuşdu. Sentyabrın 12-də irtica qüvvələrinin Təbrizə hücumu başlamışdı. Xiyabaninin qətli ilə Cənubi Azərbaycan türklərinin istiqlal mübarizəsinin daha bir səhifəsi qapandı.

### 63 il əvvəl...



**14 sentyabr 1960-cı ildə** Bağdadda keçirilən beynəlxalq konfransda Neft İxracatçısı Ölkələrin Təşkilatı – OPEK yaradılıb. Hazırda 13 ölkənin (İraq, İran, Venesuela, Qətər, Liviya, Nigeriya, BƏƏ, Səudiyyə Ərəbistanı və s.) daxil olduğu təşkilat dünyada neft istehsalının yarısına nəzarət edir. Mənzil-qərargahı Vyana (Avstriya) şəhərindədir.

### 44 il əvvəl...

**14 sentyabr 1979-cu ildə** Əfqanıstanda hakimiyyət çevrilişi baş verib. Əfqanıstan Demokratik Respublikası İnqilabi Şurasının sədri Nur Məhəmməd Təraki Baş nazir Hafizulla Əminin qüvvələri tərəfindən öldürülüb. Lakin H.Əminin hakimiyyəti də uzun çəkmədi və həmin ilin dekabrında sovet müdaxiləsi zamanı o qətlə yetirildi.

### 43 il əvvəl...



**12 sentyabr 1980-ci ildə** Türkiyədə dövlət çevrilişi olub, general Kənan Evrenin başçılıq etdiyi hərbçilər hakimiyyəti ələ alıblar. Dövlət çevrilişinin səbəbləri sosial-iqtisadi böhran, siyasi qüvvələrin, xüsusilə də solsağ qarşıdurmasının ölkəni vətəndaş müharibəsinə sürükləməsi idi. Çevrilişdən sonra ölkədə bütün partiyaların, müstəqil medianın fəaliyyəti dayandırıldı. 1982-ci ildə referendum yolu ilə ölkənin yeni Ana Yasası qəbul edildi, Kənan Evren prezident seçildi. ABŞ-də Dünya Bankında çalışan Turqut Özal isə baş nazir vəzifəsinə dəvət olundu.

### 32 il əvvəl...

**14 sentyabr 1991-ci ildə** Bakıda Azərbaycan Kommunist Partiyasının (KP) fövqəladə 33-cü qurultayı keçirilib. Qurultay Azərbaycan KP-nin özünü buraxması haqqında qərar qəbul edib. Partiyanın əmlakı respublika və yerli hakimiyyət orqanlarına verilib. "Avqust qiyamı"nın (19-21 avqust – Moskvada "QKÇP" dövlət çevrilişi cəhdi) iflasından sonra Sovet İttifaqında kommunist hakimiyyətinə faktiki olaraq son qoyulmuşdu. Beləcə, 71 il hakim qüvvə olan Azərbaycan KP də tarixin arxivinə verildi.

**Hazırladı: V.Orxan**

"Mədəniyyət" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Lalə Ələkbərovaya bibisi

**Sərvərxanım Quliyevanın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

"Mədəniyyət" qəzeti redaksiyasının kollektivi Nizami Kino Mərkəzinin direktor vəzifəsini müvəqqəti icra edən Arzu Əhədovaya anası

**Züleyxa Əhədovanın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5053. **Sifariş:** 2381

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641